

**Sabit inkişafın təminatı olan mükəmməl ideyalar**
səh. 4

**Səudiyyə Ərəbistanından olan alimlə görüş**
səh. 2

**Anlaşma memorandumu imzalanıb**
səh. 3



Özünü fəth etməyi bacar!

# Bakı Universiteti

1929-cu ildən çıxır
**Təsisçi:** Bakı Dövlət Universiteti

№ 06 (1429) 14 may 2012-ci il

# Tükənməz ideyaların mənbəyi olan məktəb



## "Heydər Əliyev məktəbi"nin növbəti məşğələsi keçirilib

Tədbir ulu öndərin anadan olmasının 89-cu ildönümünə həsr edilib. Universitetin professor-müəllim heyətinin iştirak etdiyi tədbirdə çıxış edən rektor, akademik Abel Məhərrəmov ulu öndər Heydər Əliyevin tarixi xidmətlərindən danışıb.
səh. 2

**"Heydər Əliyev və müasir Azərbaycan gəncliyi"**
səh. 3

**"Heydər Əliyev və Azərbaycan dövlətçiliyi"**
səh. 2

**BDU nümayəndə heyəti Samsundan dönüb**
səh. 3

**Kollektivimizin sevimlisi**
səh. 6

**"Aşıq Şəmşir" Ocağı *qalib tələbələri mükafatlandırdı***
səh. 3

**TÜRKLƏR TƏKCƏ TÜRKİYƏDƏ YAŞAMIRLAR**
səh. 8

**Alimlər yaraları sağaldan cihaz hazırlayıb**
səh. 8

**Gül bayramı**
səh. 2



**Şuşasız Qarabağ yoxdur**
səh. 6

**Nizami Gəncəvi - 870**
səh. 3

***Əməkdaşımızın uğuru***
səh. 6

**Qadın elə bir mələkdir ki...**
səh. 7

**Cəmiyyətlə dinin əlaqəsi**
səh. 7

**Gözəllik dünyanı xilas edəcək?**
səh. 7

**Bakının yol infrastrukturu**
səh. 6



**15 may - Beynəlxalq ailə günü**
səh. 8



# "Heydər Əliyev məktəbi"nin növbəti məşğələsi

Tədbir ulu öndərin anadan olmasının 89-cu ildönümünə həsr edilib.

Universitetin professor-müəllim heyətinin iştirak etdiyi tədbirdə çıxış edən rektor, akademik Abel Məhərrəmov ulu öndər Heydər Əliyevin tarixi xidmətlərindən danışıb. Rektor bildirib ki, hər yerdə ulu öndərin anadan olmasının 89-cu ildönümünə həsr edilmiş geniş tədbirlər keçirilir və bu olduqca böyük əhəmiyyət kəsb edir. Rektor Abel Məhərrəmov söyləyib ki, Heydər Əliyevin tarixi xidmətləri nəticəsində ölkəmiz bütün sahələrdə, o cümlədən iqtisadiyyat, elm, təhsil sahəsində bir çox nailiyyətlərə imza atıb. "Xoşbəxt o xalqdır ki, onun ümummilli lideri var. Xalq o vaxt daha da xoşbəxtdir ki, həmin siyasi kurs uğurla davam etdirilir" deyən rektor ulu öndərin elmin, təhsilin inkişafına hər zaman böyük qayğı ilə yanaşdığını, ulu öndərin siyasi kursunun onun layiqli davamçısı, Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini qeyd edib. Son illər əldə edilən uğurların: Azərbaycanın Avropanın nüfuzlu "Eurovision" mahnı yarışmasında qalib gəlməsi, BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi, 2020-ci il Yay Olimpiya Oyunlarının ev sahibliyinə namizədliyini irəli sürməsinin bunun bariz nümunəsi olduğunu bildirib.

Daha sonra Yeni Azərbaycan Partiyası sədrinin müavini - icra katibi, BDU-nun Politologiya və sosiologiya kafedrasının müdiri Əli Əhmədov çıxış edib. Heydər Əliyev tərəfindən milli ideologiyamızın mükəmməl konsepsiyasının işlənib hazırlanmasından bəhs edən Əli Əhmədov ölkənin bütün sahələrində tətbiq olunan uğurlu islahatların onun dövlətçilik konsepsiyasının ideyaları sayəsində gerçəkləşdiyini bildirib: "Müasir Azərbaycan cəmiyyətinin, onun humanizm, milli-mənəvi dəyərlərinin formalaşması ulu öndərin əsas xidmətlərindən olub. Onun yaratdığı müasir Azərbaycan dövləti bu gün xalqa, onun milli maraqlarına şərəflə və ləyaqətlə xidmət edir".



Tədbirdə çıxış edən AMEA Tarix İnstitutunun direktoru, Qədim dünya və orta əsrlər tarixi kafedrasının müdiri Yaqub Mahmudov Bakı Dövlət Universitetinin hər zaman ümummilli lider Heydər Əliyevi ehtiramla anmasını yüksək dəyərləndirib. Bildirib ki, Heydər Əliyev dünyanın Vaşinqton, Atatürk, Nehru, Şarl de Qoll kimi nadir tarixi simaları arasında ön sırada layiqli yerini tutur. Tarixçi alim Heydər Əliyevin həm sovetlər hakimiyyəti, həm də müstəqillik dövründə Azərbaycan xalqının tərəqqisi yolunda bütün qüvvəsilə xidmət göstərdiyini qeyd edib. Digər natiqlər kimi son illər ölkəmizin qazandığı nailiyyətlərdən bəhs edən Y.Mahmudov bildirib ki, ümummilli liderin siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilir.

Sonda Türkologiya kafedrasının müdiri, professor Tofiq Hacıyev dahi şəxsiyyət Heydər Əliyevin Azərbaycan ədəbiyyatına qayğısından danışıb. XX əsr Azərbaycan ədəbiyyatının böyük bir dövrünün onun adı ilə bağlı olduğunu, Azərbaycan ədəbiyyatının inkişafı istiqamətindəki xidmətlərinə görə tarixin yaddaşına həkk olunduğunu və daim qəlblərdə yaşayacağını söyləyib.

# Rektor Səudiyyə Ərəbistanından olan alimi qəbul edib



Aprelin 30-da rektor, akademik Abel Məhərrəmov Səudiyyə Ərəbistanı Kral Əbdüləziz adına Elm və Texnologiya Mərkəzinin (KƏŞETM) Elmi layihələr üzrə direktoru Süleyman Məhəmməd Alfadulu qəbul edib. Rektor qonağı Azərbaycanda, o cümlədən Bakı Dövlət Universitetində görməkdən məmnunluğunu ifadə edib. Səudiyyə Ərəbistanı ilə ölkəmiz arasında sıx əlaqələrin olduğunu nəzərə çatdıran rektor Abel Məhərrəmov bu münasibətlərin elm və təhsil müstəvisində də inkişaf etdiyini söyləyib, dövlətin elm və təhsilə olan diqqət və qaygısından bəhs edib. A.Məhərrəmov universitetin şərqşünaslıq fakültəsində ərəb dili və ədəbiyyatı üzrə mütəxəssis yetişdirildiyini, ölkəmizdə ərəb ixtisası üzrə görkəmli akademiklərin, alimlərin olduğunu söyləyib. BDU-da humanitar elmlərlə, yanaşı dəqiq elmlərə də böyük diqqət ayrıldığını bildirən rektor Səudiyyə Ərəbistanı universitetləri ilə kimya fakültəsi arasında bir sıra elmi layihələr üzərində müştərək görülən işləri də yüksək dəyərləndirib.

Doktor Süleyman Məhəmməd Alfadul Azərbaycana birinci dəfə səfər etdiyini, ölkəmizin onda xoş təəssüratlar oyatdığını, BDU-da olmasından şad olduğunu qeyd edib. İşlədiyi müəssisənin çoxsaylı layihələr həyata keçirdiyini bildirən qonaq hazırda BDU ilə bir proqram üzərində çalışdıqlarını söyləyib. "Müxtəlif tullantı sularının ağır metal, neft və neft məhsullarının təmizlənməsi üçün nanoməsaməli polifunksional polimer adsorbentlərin sintezi" adlı layihənin Səudiyyə Ərəbistanı tərəfindən rəyçisi olan Dr.Süleyman M.Alfadulu layihənin rəhbəri, BDU-nun kimya fakültəsinin dekanı, professor Abdulsəyid Əzizovla birgə görülən işlərdən bəhs edib. Bildirib ki, ölkəmizə gəlməkdə əsas məqsədi layihə üzərində alınan nəticələri müzakirə etməkdən ibarətdir. Qonaq gələcəkdə də universitetlə bir sıra yeni layihələr üzərində işləməkdə, əlaqələri daha da inkişaf etdirməkdə maraqlı olduğunu qeyd edib. Sonda rektor qonağa universitetin bukletini və hədiyyələr təqdim edib.

**A.Əmirova**

# Ümummilli liderin ildönümünə həsr olunmuş Gül bayramı



Mayın 10-da Tələbə Gənclər Təşkilatının təşəbbüsü ilə ümummilli lider Heydər Əliyevin anadan olmasının 89-cu ildönümünə həsr olunmuş Gül bayramı keçirilib.

Tələbələrin hazırladıqları gül kompozisiyalarının və incəsənət nümunələrinin nümayiş etdirildiyi tədbirdə universitetin 17 fakültəsi, o cümlədən əksər ali təhsil müəssisələri iştirak ediblər.



Gül bayramına qatılan rektor, akademik Abel Məhərrəmov ulu öndərin ad günü münasibətilə təşkil edilmiş bayramın əhəmiyyətindən danışıb, kompozisiyaların fakültələrin profilinə uyğun hazırlanmasını yüksək qiymətləndirib: "Universitet tələbələrinin yaratdıqları əl işləri biri-birindən gözəldir. Fakültələrin hamısı öz qabiliyyətlərini yüksək səviyyədə nümayiş etdiriblər. İştirakçılar ümummilli liderimizi necə təsəvvür etdiklərini göstərməyə çalışıblar. Bu tədbir onu göstərir ki, bu gün Azərbaycan gəncliyi düzgün yoldadır, gənclər ümummilli liderimizin müəyyənləşdirdiyi ideya ilə yaşayırlar. Bu da ondan xəbər verir ki, Azərbaycanın böyük, işıqlı gələcəyi var. Bu gənclər Azərbaycanın bayrağını ən yüksək zirvəyə qaldıra biləcəklər. Bizi sevindirən odur ki, gənc nəsil öz borcunu vaxtında başa düşür və vaxtında Heydər Əliyev addımları ilə irəli gedir. Xoşbəxt o xalqdır ki, onun ümummilli lideri var. Xalq o vaxt daha da xoşbəxtdir ki, həmin siyasi kurs ölkədə uğurla davam etdirilir."



Sonda rektor tədbirin təşkilatçılarına, əməyi keçən hər kəsə təşəkkürünü bildirib.

**Nigar Balcanova**

# "Heydər Əliyev və Azərbaycan dövlətçiliyi"



Mayın 10-da kitabxanaçılıq-informasiya fakültəsində ulu öndər Heydər Əliyevin 89-cu ildönümü münasibətilə "Heydər Əliyev və Azərbaycan dövlətçiliyi" mövzusunda sərgi təşkil olunub. Sərgidə ümummilli liderin həyat və yaradıcılığının bütün istiqamətlərini əks etdirən 300-dən artıq azərbaycan, ingilis, türk, rus, ərəb dillərində nəşrlər sərgilənib. Tədbirdə həmçinin quraşdırılmış monitor vasitəsilə Heydər Əliyevin həyat və yaradıcılığına həsr edilmiş elektron kitabların təqdimatı və "Heydər Əliyev və Azərbaycan dövlətçiliyi" sənədli materiallar toplusunun nümayişi olub. Mərasimdə iştirak edən rektor, akademik Abel Məhərrəmov sərginin əhəmiyyətindən bəhs edib, ulu öndərin Azərbaycan dövləti və xalqı qarşısında tarixi xidmətlərindən danışıb. Rektor böyük öndərin ölkə həyatında - siyasətində, diyyatında, elm və təhsilində, digər sahələrdə həyata keçirdiyi islahatlardan, möhtəşəm layihələrdən bəhs edib, birmənalı olaraq qüdrətli Azərbaycanın bütün nailiyyətlərinin bu böyük şəxsiyyətin adı ilə bağlı olduğunu bir daha tədbir iştirakçılarının diqqətinə çatdırıb.

# Elmi Şuranın növbəti iclası keçirilib

***Mayın 11-də Universitetin Böyük Elmi Şurasının genişləndirilmiş növbəti iclası keçirilib. İclası açan rektor, akademik Abel Məhərrəmov gündəliyi elan edib.***

Müzakirə edilən birinci məsələ, 6-25 aprel 2012-ci il tarixlərində IV kurs tələbələri üçün keçirilmiş yay imtahan sessiyasının nəticələri, 2011/2012-ci tədris ilində Yekun Dövlət imtahanlarının təşkili və yay imtahan sessiyasına hazırlıq ilə əlaqədar olub. Bununla bağlı Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektor, professor İradə Əliyeva məruzə edib. Professor İradə Əliyeva həmçinin Bakı Dövlət Universitetinin növbəti 5 il üçün Təhsil Nazirliyi tərəfindən akkreditasiyadan keçməsi məqsədilə hazırlanmış Özünütəhlil Hesabat mövzusunda da çıxış edib. Professorun slaydlarla təqdim etdiyi hər iki prezentasiyası Elmi Şura üzvləri tərəfindən maraqla qarşılanıb.

2011/2012-ci tədris ilinin qış imtahan sessiyası zamanı Apellyasiya Komissiyasına və Qərargaha daxil olan ərizələrin və nəticələrin təhlili üzrə professor Elşad Qurbanov geniş məruzə ilə çıxış edib.

Sonra BDU Attestasiya Komissiyasının sədri, AMEA-nın müxbir üzvü V.M.Babazadə xarici dil kafedralarında keçirilən attestasiya ilə bağlı ətraflı məlumat verdi.

Elm və innovasiyalar üzrə prorektor, professor Aydın Kazımzadə Elm Fondunun təşkil etdiyi müsabiqə barədə Şura üzvlərini məlumatlandırdı.

Ümummilli lider Heydər Əliyevin ad günü ilə bağlı BDU-da keçirilən silsilə tədbirlər barədə məlumat verən rektor, akademik Abel Məhərrəmov şahmat çempionatının qaliblərini təbrik etmək üçün sözü universitet Həmkarlar İttifaqı Komitəsinin sədri dosent Fikrət Şiriyevə verdi. Fikrət Şiriyev qeyd etdi ki, bu yaxınlarda Bakıda olan Beynəlxalq Şahmat Federasiyasının Prezidenti cənab Kirsan İlyumjinov bildirmişdir ki, Azərbaycan şahmat ölkəsidir və FİDE-nin üzvü olan 198 ölkədən yeganəsidir ki, bu ölkənin prezidenti şahmatın inkişafı haqda Dövlət Proqramı qəbul edib. Bu amilləri nəzərə alaraq müəllimlər arasında şahmat üzrə şəxsi birinciliyin qaliblərini Elmi Şurada mükafatlandırmaq qərarına gəldik. Sonra akademik Abel Məhərrəmov qaliblərdən Aqil Hacıyevi, Firuz İsmayılovu və Fikrət Əlizadəni təbrik etdi, onlara pul mükafatı və gül dəstələri təqdim etdi.

Bununla belə universitetin bəzi işçilərinə elmi adlar verilib və digər cari məsələlər müzakirə olunub.

***Tamila Müslümova***

# "Heydər Əliyev və müasir Azərbaycan gəncliyi"



***Tələbə Həmkarlar İttifaqı Komitəsinin təşkilatçılığı ilə Ulu öndər Heydər Əliyevin anadan olmasının 89-cu ildönümünə həsr olunmuş "Heydər Əliyev və müasir Azərbaycan gəncliyi" mövzusunda tədbir keçirilib.*** Tədbiri giriş sözü ilə açan THİK sədri Daşqın Qənbərov ümummilli liderin həyat və yaradıcılığı, Azərbaycanın müstəqil dövlət kimi inkişaf etməsində göstərdiyi xidmətlərdən danışıb.

Daha sonra YAP Yasamal rayon təşkilatı Gənclər Birliyinin sədri Bəxtiyar Nəbiyev ümummilli lider Heydər Əliyevin gənclərə qayğı və diqqətindən bəhs edib, bu istiqamətdə atdığı tarixi addımlara xatırladıb. Tədbirdə THİK sədr müavini Elvin Əbrahimov, THİK ictimaiyyətlə əlaqələr Departamentinin direktoru Baba Əliyev, Tarix fakültəsi THT-nin sədri Anar Cəfərov və digərləri iştirak ediblər.

Tədbir tələbələrin mövzu ətrafında aktiv müzakirəsi ilə yekunlaşıb.

# Radiasiya Problemləri İnstitutu ilə anlaşma memorandumu imzalanıb

***Mayın 1-də Bakı Dövlət Universiteti ilə AMEA-nın Radiasiya Problemləri İnstitutu arasında anlaşma memorandumu imzalanıb. Memorandumu BDU-nun rektoru, akademik Abel Məhərrəmov və Radiasiya Problemləri İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Adil Qəribov imzalayıblar. Akademik Abel Məhərrəmov memorandumun əhəmiyyətindən danışıb.*** Prezident İlham Əliyevin iqtisadi potensialı intellekt kapitalına çevirmək istiqamətində qarşıya qoyduğu vəzifələrdən bəhs edən rektor dünyada enerji ölkəsi kimi tanınan Azərbaycanın yaxın gələcəkdə nüvə ölkəsi olması istiqamətində atılan addımlardan da söz açıb. Bu baxımdan imzalanacaq memorandumun rolunun xüsusi olacağını qeyd edib.



AMEA-nın müxbir üzvü Adil Qəribov Radiasiya Problemləri İnstitutunun fəaliyyətindən, MAQATE ilə işbirliyindən danışıb. O memorandumun kağız üzərində qalmayacağını və BDU-nun potensialından yararlanaraq daha mühüm işlər görüləcəyinə ümid etdiyini bildirib.

**İmzalanmış memorandumda tərəflər aşağıdakı prinsiplər haqqında razılığa gəliblər:**

-Nüvə fizikası və texnologiyası, radiasiya materialşünaslığı, radiasiya kimyası, nüvə və radiasiya təhlükəsizliyi, nanotexnologiya, radioekologiya, radiobiologiya və qarşılıqlı maraq doğuran digər innovasiya istiqamətlərində elmi-tədqiqat və kadr hazırlığı sahəsində birgə iştirak;

-Elmi-tədqiqat və kadr hazırlığı sahəsində Bakı Dövlət Universiteti və AMEA-nın Radiasiya Problemləri İnstitutunun maddi-texniki bazasından və kadr potensialından birgə istifadə;

-Elmi işçilərin, doktorant və tələbələrin müvafiq fakültələrdə, kafedralarda və elmi-tədqiqat laboratoriyalarında təcrübə və staj keçməsinin təşkili;

-Yeni texnika və texnologiyaların mübadiləsi;

-Birgə elmi simpozium, seminar və konfransların təşkili;

-Qarşılıqlı maraq doğuran beynəlxalq və yerli layihə və proqramlarda birgə iştirak;

-Müvafiq ixtisas sahələri üzrə birgə elmi əsərlərin çap edilməsi, monoqrafiyaların, dərslik və dərs vəsaitlərinin yazılması.

# BDU nümayəndə heyəti Samsundan dönüb

***Bakı Dövlət Universiteti, Qafqaz Universiteti, Türkiyə Ədliyyə Akademiyası və Ondokuz Mayıs Universitetinin birgə təşkilatçılığı ilə 04-06 may 2012-ci il tarixlərində Türkiyə Respublikasının Samsun şəhərində "Hüquq elminin aktual problemləri" mövzusunda III Beynəlxalq Konfrans keçirilib.*** Həmin Konfransda Bakı Dövlət Universiteti geniş nümayəndə heyəti ilə təmsil olunub.

Konfransın Plenar İclasında Azərbaycan Respublikasının Ombudsmanı professor Elmira Süleymanova, Bakı Dövlət Universitetinin rektoru, akademik Abel Məhərrəmovun adından isə BDU-nun Hüquq fakültəsinin dekanı, h.e.d., professor Əmir Əliyev çıxış ediblər. Bundan başqa, ayrı-ayrı bölmələr üzrə Ombudsman Elmira Süleymanova "Hüquq təhsilində və hüquqi məlumatlandırmada Ombudsmanın rolu" mövzusunda, prof. Əmir Əliyev isə *"İnsan hüquqları ilə əlaqədar beynəlxalq standartların milli konstitusiyalarda təsbiti"* mövzusunda elmi məqalə ilə çıxış ediblər.

Konfransda Konstitusiya hüququ, Mədəni hüquq, Beynəlxalq hüquq, Cinayət hüququ, Ticarət hüququ, İş və sosial təhlükəsizlik hüququ, Hüquq fəlsəfəsi və Türk hüquq tarixi, İdarə hüququ, İdman hüququ seksiyaları üzrə aparılan geniş elmi müzakirələrdə BDU-nun bir qrup müəllim və professor heyəti, o cümlədən, h.e.d.,prof. R.F.Məmmədov, h.e.d.,prof. A.M.Qasımov, h.e.d., prof. M.N.Əliyev, h.e.f.d, dos. M.X.Yolçuyev, h.e.f.d , dos. S.S.Süleymanlı, h.e.f.d., dos. F.S.Mehdiyev, baş müəllim E.H.Nəsirov, və h.ü.f.d. S.F.Əliyev müxtəlif mövzularda elmi məruzələr ediblər.

# Nizami Gəncəvi - 870



Azərbaycan Respublikası Prezidentinin sərəncamına uyğun olaraq, filologiya fakültəsində Şərq poeziyasının görkəmli nümayəndəsi, dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin anadan olmasının 870 illik yubiley tədbiri keçirilib. Tədbiri fakültənin dekanı, dosent Məhərrəm Vəliyev açaraq, Nizami Gəncəvinin həyat və yaradıcılığı haqqında geniş məlumat verib. Dekan şairin əsərlərinin hərtərəfli tədqiq olunduğunu nəzərə çatdırıb. Dekan eyni zamanda qeyd edib ki, Nizami Gəncəvi ilə bağlı son yubiley tədbirləri ustad sənətkarın 850 illiyi ilə əlaqədar 1991-ci ildə keçirilməli idi. Lakin ölkədəki dərin siyasi, iqtisadi və sosial böhran buna imkan verməmişdir. Sonralar ümummilli lider Heydər Əliyevin, bu gün isə cənab prezident İlham Əliyevin ədəbiyyat və mədəniyyətimizə göstərdiyi diqqətin nəticəsidir ki, görkəmli Azərbaycan şairlərinin və yazıçılarının silsilə yubiley tədbirləri keçirilir, xatirələri əbədiləşdirilir. Nizami Gəncəvinin Roma şəhərində heykəlinin ucaldılması da dövlətimizin böyük şairimizə verdiyi ən böyük qiymətlərdən biridir.

Tədbirdə Klassik Azərbaycan ədəbiyyatı kafedrasının professoru Qara Namazov çıxış edərək, böyük Azərbaycan şair-filosofunun həyat və yaradıcılığı, eyni zamanda onun Gəncə yaxınlığında Zazalı kəndinin Kürboyu torpaqlarındakı vəqfi haqqında ətraflı danışıb. Bildirib ki, hələ sovet illərində professor Həmid Araslı bu sənədləri Türkiyədən əldə etmişdir.

Tədbirdə Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası kafedrasının dosenti Mətanət Abdullayeva ilkin Şərq intibahının zirvəsi olan və yaradıcılığında dövrünün ən humanist, ümümbəşəri ictimai-siyasi, sosial və mənəvi-əxlaqi ideallarını parlaq bədii lövhələrlə əks etdirən şairin yaradıcılığı haqqında geniş məruzə ilə çıxış edib. O, çıxışında Nizaminin Şərqin böyük təsəvvüf şairi kimi tədqiqinə diqqət yönəldib.

Türkologiya kafedrasının müdiri, professor Tofiq Hacıyev Nizami Gəncəvinin sovet dövründə Azərbaycan şairi kimi qəbul edilmədiyini, lakin Stalinin bu barədə fərmanından sonra Azərbaycan şairi kimi öyrənildiyini tədbir iştirakçılarının nəzərinə çatdırıb. Professor eyni zamanda İtaliyada Nizami Gəncəvinin heykəlinin ucaldılması məsələsinə də toxunub. O, bu addımı Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevanın Azərbaycan ədəbiyyatına, mədəniyyətinə göstərdiyi böyük diqqətin nəticəsi kimi qiymətləndirib.

Tədbirdə həmçinin Nizami Gəncəvinin həyat və yaradıcılığını əks etdirən film nümayiş etdirilib. Eyni zamanda tələbələrin hazırladığı "Sevgi fəlsəfəsi" adlı səhnəcik təqdim edilib.

# Attestasiyaya start verilib

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Təhsil müəssisələrinin akkreditasiyası Qaydaları"nın təsdiqi barədə 28 sentyabr 2010-cu il tarixli 167 saylı qərarına uyğun olaraq, Təhsil Nazirliyinin 28 mart 2011-ci il tarixli 46-26-2115/16 saylı məktubuna əsasən, 2012-ci ilin aprel ayında Bakı Dövlət Universitetinin akkreditasiyasının keçirilməsi nəzərdə tutulub.*

Bakı Dövlət Universiteti Azərbaycan Respublikası Təhsil Nazirliyi Akkreditasiya Komissiyasının qərarına əsasən, Nazirliyin 16 noyabr 2006-cı il tarixli 840 nömrəli əmri ilə dövlət ali təhsil müəssisəsi kimi 4 il müddətinə akkreditə olunub və ona Təhsil Nazirliyi tərəfindən 23 noyabr 2006-cı il tarixli 004 nömrəli sertifikat verilib.

***2012-ci ildə növbəti attestasiyanın təşkili üçün BDU rektorunun 29 mart 2012-ci il tarixli R-38 saylı əmri ilə özünütəhlil komissiyası yaradılıb.*** Komissiyanın yaradılmasında məqsəd universitetin idarə olunması, tədris, elmi-tədqiqat, kadr təminatı, beynəlxalq əməkdaşlıq, maddi-texniki baza, sosial-məişət şəraiti, maliyyə təminatı, mütəxəssis hazırlığının məzmunu, strukturu və Dövlət Təhsil Standartlarının tələblərinə uyğun hazırlanma keyfiyyətini təhlil etməkdir.

23 aprel 2012-ci il tarixindən başlayaraq universitetin bakalavr və magistratura pillələrinin buraxılış kurslarında təhsil alan tələbələr arasında attestasiyaya start verilib. Attestasiya zamanı ayrı-ayrı ixtisas və ixtisaslaşmalar üzrə imtahanlarda 4000-ə yaxın bakalavr və 466 magistrant iştirak edəcəkdir. İmtahanlar test üsulu ilə aparılır.

# "Aşıq Şəmşir" Ocağı qalib tələbələri mükafatlandırdı

***Mayın 5-də Beynəlxalq Mətbuat Mərkəzində "Aşıq Şəmşir" Mədəniyyət Ocağı İctimai Birliyi Bakı Dövlət Universitetinin Kitabxanaçılıq-informasiya fakültəsi ilə birgə təşkil etdiyi görkəmli dövlət xadimi Heydər Əliyevin anadan olmasının 89-cu ildönümünə həsr edilmiş məqalə müsabiqəsinin təqdim edilməsinə həsr olunmuş tədbir keçirilib.*** Mükafatlandırılma mərasimində ilk olaraq "Zərli tac kamallı başa yaraşır" adlı videoklipi nümayiş etdirilib. Heydər Əliyevə həsr olunmuş videoklipdə Kəlbəcərdə dünyaya göz açan el sənətkarı Aşıq Şəmşirin yaxın tariximizin quruculuq dövrü olan yetmiş-səksəninci illər tərəqqisinə həsr etdiyi şeirlər səsləndirilir. Bildirilir ki, ustad sənətkarın Heydər Əliyevə həsr etdiyi şeirlər üstündən illər keçdikdən sonra bu gün də zamanla həmahəng səslənir. Tədbirdə çıxış edən Milli Məclisin deputatları Cavid Qurbanov, Jalə Əliyeva, Elton Məmmədov, Elmira Axundova, Fəzail Ağamalı tələbələrə uğurlar arzulayıblar.

Daha sonra Tədbirdə inşa müasbiqəsinin qaliblərinə "Aşıq Şəmşir" Mədəniyyət Ocağı İctimai Birliyi tərəfindən pul mükafatları, hədiyyələr və təşəkkürnamə diplomları təqdim olunub.

***Qaliblər aşağıdakı kimi müəyyənləşdirilib:***

*I- Abdullayeva Güllər İlqar qızı*
*II- Həsənova Aysel Vaqif qızı*
*III- Hüseynli Əli Bahadur oğlu*

***Həvəsləndirici yerlər-*** *Məhəmmədli Daşqın Heydər oğlu, Nəzirli Rüfanə Əlimuxtar qızı.*

***Diplomantlar-*** *Həsənova Günay Rasim qızı, Zeynalov Elvin Şamil oğlu, Abbaslı Həcər Şamil qızı, Səttarova Fidan Fazil qızı, Nəsibova Tünzalə Akif qızı.*

*Səhifəni təqdim etdi:* ***Mətbuat və İnformasiya şöbəsi***

# Sabit inkişafın təminatı olan mükəmməl ideyalar

***XX əsr Azərbaycan tarixinin yetirdiyi ən böyük şəxsiyyət - ümummilli lider Heydər Əliyev müasir Azərbaycan dövlətinin ideoloji-siyasi əsaslarını tarixi irs və milli-mənəvi dəyərlər zəminində yaradaraq praktik surətdə gerçəkləşdirmiş dahi strateqdir!*** Azərbaycanı canı qədər sevən, ürəyi daim xalqının səadəti, xoşbəxtliyi uğrunda döyünən, ölkəsini azad, müstəqil və inkişafda görmək istəyən, vətəninin, xalqının yolunda həyatını qurban verməyə hazır olan Heydər Əliyev dühasının mənalı ömür yolunun hər anı, hər səhifəsi bugünkü və gələcək nəsillərə nümunə olacaq canlı və unudulmaz tarixdir.

Ulu öndərin əbədiyyətə qovuşmasından ötən illər bizə bu dövrün əzəmətini, möhtəşəmliyini tam mahiyyəti ilə anlamaq, Heydər Əliyev fenomeninin milli dövlətçilik qarşısındakı əvəzsiz xidmətlərini mahiyyəti üzrə dərk etmək imkanı verir. Ümummilli liderin ölkəyə rəhbərlik etdiyi dövrlərdə xalqın minilliklərlə intizarında olduğu arzular, niyyətlər, məramlar gerçəyə çevrilmiş, milli dövlətçilik ənənələrinin formalaşması prosesi sürətlənmişdir. Bu zaman kəsiyi Azərbaycanda müstəqilliyin əbədi, daimi və dönməz xarakter alması, sabit dövlət quruluşunun yaranması, xalqın təbii və konstitusion haqlarına sahib çıxması, milli-mənəvi yüksəlişə nail olması kimi misilsiz tarixi prosesi əhatələyir.

Ümummilli liderin respublikanın ağır iqtisadi, siyasi, mənəvi böhran keçirdiyi bir vaxtda - 1969-cu ilin iyulunda Azərbaycan KP MK-nın birinci katibi seçilməsi isə ölkəni işıqlı gələcəyə doğru aparan yolun başlanğıcına çevrildi. Həmin il iyulun 14-də keçirilən plenumda geniş nitq söyləyən yeni rəhbər elə ilk gündən köhnə stereotipləri dağıdaraq milli ideallara bağlı lider olduğunu nümayiş etdirdi. Heydər Əliyevin ədalətə, qanunçuluğa tapınaraq respublikada rüşvətxorluğa, dövlət əmlakının mənimsənilməsi hallarına qarşı kəskin mübarizəyə qalxması, paralel olaraq yüksək yenilikçiliyi, təşəbbüskarlığı, islahatlara meyilliliyi geniş ictimaiyyət arasında nikbinliyi, sabaha inamı artırdı. Hələ ötən əsrin 70-80-ci illərindən respublikada böyük uzaqgörənliklə formalaşdırdığı sənaye və istehsal potensialı bugünün özündə də davamlı iqtisadi yüksəliş üçün möhkəm özülə çevrilmişdir. O dövrdə keçmiş SSRİ-nin ən geridə qalmış respublikalarından biri kimi tanınan, iqtisadi, mənəvi-ideoloci böhranla üz-üzə duran Azərbaycan sanki taleyin ümidinə buraxılmış kimi görünürdü.

***Ulu öndər onu da yaxşı bilirdi ki, xalqın siyasi müstəqilliyinin təməlini məhz onun iqtisadi azadlığı şərtləndirir.*** Bu baxımdan Heydər Əliyev qısa müddətdə ölkədə mədəni və mənəvi intibahı təmin etməklə, bu mütərəqqi prosesi iqtisadiyyatdakı uğurlarla üzvi surətdə əlaqələndirdi. Təsadüfi deyil ki, 1969-1982-ci illərdə həyatın bütün sahələrində baş vermiş köklü dəyişikliklər miqyasına görə Azərbaycanın şanlı quruculuq salnaməsinin ən dolğun, şərəfli səhifələrini təşkil edir. Müstəqil Azərbaycanın keçid dövrünü başa vuraraq dünya iqtisadiyyatına sürətlə inteqrasiya edən qüdrətli dövlətə çevrilməsinin hazırkı möhkəm təməli də məhz Heydər Əliyevin respublikaya birinci rəhbərliyi dövründə formalaşdırdığı güclü iqtisadi bünövrəyə söykənir. Ulu öndər ölkənin gələcəyini, müstəqilliyini düşünərək SSRİ rəhbərliyi qarşısında təkidli tələblər irəli sürür, strateci əhəmiyyətli bir sıra sənaye və istehsal müəssisələrinin respublikada inşasına nail olurdu. Həyata keçirdiyi səmərəli islahatlarla çox qısa zamanda - artıq 1970-ci illərin ortalarında Azərbaycanın iqtisadi inkişaf göstəricilərinə görə keçmiş İttifaq miqyasında ilk yerlərdən birini tutmasını təmin etdi. Sovet imperiyası kimi böyük bir dövlətin zəngin iqtisadi potensialından və geniş imkanlarından istifadə edərək respublikanı tərəqqi yoluna çıxaran ümummilli lider Heydər Əliyev yeni və mütərəqqi sənaye sahələrinin yaradılması istiqamətində mühüm tədbirlər həyata keçirdi. Respublikanın bütün bölgələrinin inkişafı yönümündə ardıcıl addımlar atıldı, istehsalla bilavasitə bağlı elmi-tədqiqat sahələrinin genişləndirilməsi sahəsində kompleks tədbirlər görüldü. Elmi-texniki tərəqqinin nailiyyətləri, mütərəqqi texnologiyaların istehsalatda tətbiqi Azərbaycanın bütün ittifaqda qabaqcıl mövqelərə çıxmasına, ölkənin sosial-iqtisadi həyatında yüksəlişə rəvac verdi. Ümumilikdə, 1970-1985-ci illərdə Heydər Əliyevin təşəbbüsü və ciddi səyləri nəticəsində respublikada onlarca zavod, fabrik, istehsalat sahələri yaradıldı, 250-dən çox sənaye müəssisəsi fəaliyyətə başladı. Azərbaycan bir sıra istehsal sahələrinə görə Sovet İttifaqında aparıcı yer tutdu, istehsal etdiyi 350 adda məhsul dünyanın 65 ölkəsinə ixrac edildi.



Böyük strateq son dərəcə işgüzar olduğu kimi, həm də tələbkar rəhbər idi. 1970-ci illərdə tez-tez bölgələrdə olur, sadə zəhmət adamları ilə görüşür, onlarla söhbətləşir, problemlərinin yerində həlli üçün addımlar atır, ədalətsizliyə və məsuliyyətsizliyə yol verən məmurları cəzalandırırdı. Həmin illərdə yüksək ixtisaslı kadr kimi yetişərək dövlət idarəçiliyində mühüm postlar tutan insanlar ulu öndərin ali məktəblərdə hökm sürən acınacaqlı vəziyyətin aradan qaldırılması, qəbul prosesində şəffaflığın təmin edilməsi sahəsindəki qətiyyətli və prinsipial addımlarını bu gün də ehtiramla xatırlayırlar. Ulu öndər hələ o dövrlərdən milli inkişafın yeganə yolunu xalqın yüksək təhsil almasında, maariflənməsində görür, respublikada elmin inkişafı üçün bütün zəruri tədbirləri həyata keçirirdi. Ümummilli liderin yeritdiyi siyasətin dərinliyi və uzaq hədəflərə hesablanması da məhz onun elmi prinsiplər üzərində qurulması, zəngin intellektual potensiala söykənməsi ilə şərtlənirdi. Həmin illərdə respublikamızda məktəb tikintisi prosesinin sürətlənməsi, maarif işinin yüksək səviyyədə təşkili, ixtisaslı kadrlar hazırlayan yeni ali məktəblərin açılması, fundamental və humanitar elmlərin inkişafı, əldə olunan kəşflərin iqtisadiyyatda tətbiqi ulu öndərin təhsil siyasətinin əsas leytmotivini təşkil edirdi. Məhz ümummilli liderin şəxsi müdaxiləsi və qayğısı ilə ötən əsrin 70-ci illərindən başlayaraq Bakıdakı ali hərbi məktəblərə qəbul olunan gənclərin sırasında azərbaycanlıların sayı intensiv şəkildə artmağa başlamış, bu sahədə milliləşdirmə prosesinə start verilmişdi.

***Milli-mütərəqqi fikrin və ictimai düşüncənin başlıca mərkəzi kimi çıxış etməklə flaqman ali məktəb statusunu qoruyub saxlayan, milli kadr hazırlığında əsas yükü üzərinə götürən Azərbaycan Dövlət Universitetinə (indiki Bakı Dövlət Universiteti) diqqət və qayğının artırılması, bu təhsil ocağının fəaliyyətinin gücləndirilməsi ulu öndərin xüsusi diqqət mərkəzində olmuşdur.*** Heydər Əliyev hakimiyyətə gəlişindən dərhal sonra universitetin 50 illik yubileyinin keçirilməsinə qərar vermiş, 1969-cu il noyabrın 1-də bu təntənəli tədbirdə iştirak etmişdir. Ümummilli lider yubiley mərasimində totalitar sovet reciminin tətbiq etdiyi bütün baryerləri aşaraq Azərbaycan dilində nitq söyləmiş, onun dərin məzmunlu çıxışı sonrakı mərhələdə milli təhsil manifestinə çevrilmişdir. Həmin çıxışda bir çox maraqlı məsələlərə toxunulmuş, adları ehtiyatla çəkilən şəxsiyyətlər haqqında geniş bəhs olunmuşdur. Heydər Əliyev ilk dəfə olaraq Azərbaycan filosofu Bəhmənyarı, adlarını çəkməyə qadağan edilən digər insanları yada salmışdı. Bu çıxışla o, bir növ, qabaqcıl və vətənpərvər universitet ziyalılarına mənəvi ruh vermişdi. Bir faktı da qeyd edək ki, BDU-nun onillik yubileyi 1929-cu ildə keçirilmişdi. Sonrakı illərdə belə əlamətdar hadisələrin qeyd olunmasına o qədər də əhəmiyyət verilməmişdi. Yalnız 40 ildən sonra - 1969-cu ildə ümummilli liderin təşəbbüsü ilə 50 illik yubileyin keçirilməsi BDU-nun şanlı tarixinin böyük və əlamətdar mərhələsini təşkil etmişdir. Təhsil ocağının fəaliyyətinin ən məhsuldar dövrü Heydər Əliyevin Azərbaycana rəhbərliyi ilə üst-üstə düşmüşdür. Əsl hesabat yubileyləri də məhz bu dövrə təsadüf etmişdir. Ulu öndər 50, 60, 75, 80 illik yubiley komissiyalarının sədri olmuşdur. Universitet kollektivi öz hesabatını xalqın böyük oğlu Heydər Əliyevə vermişdir.

***XX yüzilliyin 70-80-ci illərində Azərbaycanın inkişafını və intibahını məhz bu ali təhsil ocağında axtaran ümummilli lider BDU-da layiqli kadrların yetişdirilməsi üçün əlindən gələni əsirgəməmişdir.*** Böyük strateq universitetə hər zaman müqəddəs məbəd kimi baxmış, bu müqəddəsliyə xələl gətirə biləcək mənfi təzahürlərin aradan qaldırılması üçün yeri gələndə, hətta sərt addımlardan belə çəkinməmişdir. 1970-ci illərin əvvəllərindən etibarən Heydər Əliyev hüquqşünas kadrların hazırlanması işinin keyfiyyətini birbaşa nəzarətə götürmüşdür. Geniş imtiyazlara, səlahiyyətlərə malik vəzifəli şəxslərin övladlarının hüquq fakültəsinə daxil olmasını yasaqlayan qərar imzalamışdır. Bununla da təhsil sistemində özünü qabarıq göstərən neqativ tendensiyalara son qoyulmuşdur.

Ulu öndər Bakı Dövlət Universitetinin 60 illik yubileyinin təşkilinin də əsas təşəbbüskarı olmuş, 1980-ci ildə keçirilmiş həmin mərasimdə iştirak edərək təbrik nitqi söyləmişdir. Sovetlər birliyi dövründə təhsil ocağının beynəlxalq əlaqələrinin genişlənməsi məhz Heydər Əliyevin respublikaya rəhbərliyə gəlişindən sonra mümkün olmuşdur. Universitet bir sıra dövlətlərin aparıcı ali təhsil müəssisələri ilə əməkdaşlığa başlamış, bu əlaqələr keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur. Ulu öndərin himayəsi və qayğısı sayəsində universitetin 40-dan çox müəllimi xarici ölkələrə pedaqoji işə göndərilmişdir. 300-dən çox müəllim və tələbə Asiya və Afrika ölkələrində tərcüməçi işləmiş, 30 müəllim və elmi işçi Avropa, ABŞ və Yaponiyada elmi ezamiyyətdə olmuşdur. Ulu öndərin diqqət və qayğısı ilə universitetin maddi-texniki bazası, iş şəraiti əsaslı şəkildə yaxşılaşdırılmış, yeni ixtisaslar üzrə fakültələr, kafedralar açılmış, kabinet və laboratoriyaların sayı 115-i keçmiş, 15 ixtisaslaşmış laboratoriya yaradılmış, təhsil ocağının ikinci korpusu tikilərək istifadəyə verilmişdir. Eyni zamanda, professor-müəllim heyətinin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində mühüm addımlar atılmış, onların yeni mənzillərlə təminatına xüsusi diqqət yetirilmişdir.

***BDU-dan pərvazlanan, təhsil sahəsində böyük uğurlar əldə edən tələbələrin keçmiş SSRİ-nin bir sıra qabaqcıl universitetlərinə oxumağa göndərilməsi ənənəsi də ulu öndərin respublikada milli kadr potensialının formalaşdırılması istiqamətində atdığı mühüm addımlardan biri kimi xatırlanır.*** Heydər Əliyevin Azərbaycanın gələcəyini düşünərək uzaqgörənliklə əsasını qoyduğu bu ənənə elmi potensialımızın yüksəlməsinə, ixtisaslı kadrlara olan ehtiyacın ödənilməsinə hesablanmışdır. Ümummilli liderin dövlətçilik fəlsəfəsinə görə elmə, təhsilə göstərilən qayğı xalqın xoşbəxt gələcəyinə qoyulan təminatlı sərmayədir. Ötən əsrin 60-cı illərində SSRİ-nin müxtəlif yerlərində oxumaq istəyənlər üçün yalnız 50 yer ayrıldığı halda, 80-ci illərin əvvəllərində bu göstərici 1000 nəfəri ötmüşdü. Həmin illərdə ulu öndərin qayğı və diqqəti ilə 10 minədək azərbaycanlı gənc respublikamızdan kənarda - keçmiş ittifaqın ən nüfuzlu ali məktəblərinə təhsil almağa göndərilmişdir. Məhz həmin dövrdə prioritet istiqamətli ixtisaslara yiyələnmiş yüksək səviyyəli kadrlar bu gün Azərbaycanda hüquqi dövlət quruculuğu prosesində yaxından iştirak edirlər. Xüsusi vurğulamaq lazımdır ki, elmin, təhsilin inkişafı, milli-mənəvi dəyərlərə həssas münasibət məsələləri müstəqil Azərbaycan Respublikasına rəhbərliyi dövründə də ulu öndər Heydər Əliyevin fəaliyyətinin əsas qayəsini təşkil etmişdir.

***Tarixən böyük siyasi liderlər ən böhranlı, çətin anlarda məsuliyyəti çiyinlərinə götürərək bütöv bir xalqın, millətin xilaskarına çevrilirlər.*** Ulu öndərin diqqəti çəkən fitri idarəçilik keyfiyyətləri sırasında onun ən ekstremal, çətin və millətin taleyi baxımından məsuliyyətli dönəmlərdə qətiyyətli, eyni zamanda, yaranmış şərait üçün ən optimal qərarlar qəbul etmək məharəti heç zaman xatirələrdən silinməyəcək. Tale 1993-cü ildə respublikanı növbəti dəfə çətin sınaqlarla üz-üzə qoyanda xalq yeganə xilaskar kimi Heydər Əliyevi hakimiyyətdə görmək istədi. 1993-cü ilin iyununda Bakıya qayıdan Heydər Əliyev yorulmaq bilmədən, qətiyyətlə Azərbaycanın başı üstünü almış vətəndaş müharibəsi alovunu söndürdü, ölkədə baş alıb gedən qanunsuz silahlı dəstələr zərərsizləşdirildi, ictimai-siyasi sabitliyin tam bərpasına, qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsinə, cəbhə bölgəsində atəşkəs rejiminə nail olundu.

***Ulu öndər xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra hələ 1970-80-ci illərdə respublikada formalaşdırılmış zəngin elmi-intellektual potensiala istinad edərək özünün təkmil təhsil konsepsiyasını irəli sürdü,*** milli tərəqqi baxımından strateci əhəmiyyət daşıyan bu sahənin problemlərini diqqətdə saxladı, elm sahəsində hökm sürən tənəzzülün qarşısı alındı, təhsilin öz məcrasına düşməsi, inkişafı üçün əlverişli iqtisadi şərait, hüquqi və mənəvi-əxlaqi mühit formalaşdırıldı. Bu böyük şəxsiyyətin müstəqil Azərbaycan xalqı və dövləti qarşısındakı misilsiz xidmətləri, eyni zamanda, ciddi təmələ əsaslanmaqla həyata keçirdiyi fəal maarifçilik siyasətində də parlaq surətdə təcəssümünü tapdı. Ulu öndər Heydər Əliyev Azərbaycan təhsilinin milli əsaslar üzərində çağdaş dünya təhsil sisteminə inteqrasiyasını başlıca vəzifə kimi aktuallaşdırdı, elm-təhsil sahəsində mütərəqqi islahatları ardıcıllıqla həyata keçirdi.

***Ümummilli liderin təhsil konsepsiyasının əsas qayəsini müstəqilliyin daha da möhkəmləndirilməsi, demokratik və hüquqi cəmiyyət quruculuğu prosesinin yüksək dinamizmlə həyata keçirilməsi, dövlətin iqtisadi potensialının gücləndirilməsi kimi ümdə prinsiplər təşkil etmişdir.***

Zaman sübut edir ki, hər bir xalqın vahid məqsədlər uğrunda toparlanması üçün zəruri olan milli ideologiya da böyük siyasi liderlərin dövlətçilik konsepsiyasında real əsaslarını tapır. Ulu öndər Heydər Əliyev müstəqil Azərbaycana rəhbərlik etdiyi dövrdə tarixi ənənə və təməl üzərində milli ideologiyanın formalaşması və inkişafı naminə misilsiz xidmətlər göstərmiş, milli düşüncənin düzgün məcrada inkişafına nail olmuş, xalqa məxsus ənənə və dəyərlər sistemini qloballaşmanın sərt təsirlərindən qorumuşdur.

Heydər Əliyevin siyasi lider kimi gücü və qüdrəti, ilk növbədə, onun elan etdiyi məqsəd və vəzifələrin real həyatda praktik tətbiq imkanları ilə ölçülür. Bununla da dahi rəhbər yeni dövrün gerçəkliklərini nəzərə almaqla müstəqil Azərbaycanın perspektiv iqtisadi, siyasi, hüquqi inkişaf prioritetlərini açıqlamış, demokratik inkişafa doğru sürət götürmüş dövləti qısa müddət ərzində möhkəmlənən, qüdrətlənən, regionda, həlledici təsir məkanına çevirmişdir. 1996-cı ildən uğurla reallaşdırılan bu strategiya sayəsində ölkə iqtisadiyyatının strukturu mülkiyyət və təşkilati-hüquqi baxımdan köklü surətdə dəyişdirilmişdir. Ümummilli liderin milli dövlətçilik qarşısında ən böyük, misilsiz xidmətlərindən biri də müstəqil Azərbaycanın yeni neft strategiyasının hazırlanması və 1994-cü ildən uğurla həyata keçirilməsi olmuşdur. Eyni zamanda 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş müstəqil Azərbaycan Respublikasının Konstitusiyasında hakimiyyət bölgüsü prinsipi, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunun hüquqi əsasları, insan hüquq və azadlıqlarının qeyri-şərtsiz təmin olunmasının bünövrəsi qoyulmuşdur. Azərbaycan demokratik, hüquqi, dünyəvi dövlət kimi ilk dəfə olaraq insan hüquqlarının prioritetliyini və hakimiyyət bölgüsünü özünün gələcək inkişaf yolu kimi seçmişdir. Bundan sonra müstəqil Azərbaycanda çoxpartiyalı sistem, siyasi plüralizm, söz, mətbuat və sərbəst toplaşmaq azadlığı bərqərar olmuş, dövlət idarəçilik sistemi tamamilə yenidən qurulmuş, məhkəmə-hüquq islahatları aparılmışdır. Ulu öndərin müstəqilliyin bərpasından sonra respublikaya rəhbərlik etdiyi illərdə ölüm cəzasının, mətbuat üzərində siyasi senzuranın ləğvi, Azərbaycanın Avropa Şurasına tamhüquqlu üzv qəbul edilməsi, respublikada üçpilləli məhkəmə sisteminin formalaşdırılması, Konstitusiya Məhkəməsinin fəaliyyətə başlaması, İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) İnstitutunun yaradılması, Konstitusiyaya mütərəqqi ruhlu əlavə və dəyişikliklərin edilməsi və digər məsələlər demokratik inkişaf yolunda mühüm nailiyyətlərdir.

Ulu öndər böyük siyasi təcrübəsi və səriştəsi sayəsində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlar prosesinin milli maraqlara uyğunlaşdırılmasını da təmin etmişdir. Bütün bunlarla yanaşı, xalqın milli mədəniyyətinin və mənəvi-əxlaqi dəyərlərinin də qorunub saxlanılması üçün daim böyük səy göstərmişdir. Elm, mədəniyyət, ədəbiyyat, incəsənət xadimlərinin sosial müdafiəsinin təşkili istiqamətində atılan addımlar, dövlət büdcəsindəki artımlar hesabına bu sahələrə yönələn vəsaitlərin yüksəlməsi yeni bir intibah mərhələsinin əsasını qoymuşdur. Vətəndən uzaq düşən, xaricə üz tutan istedadlı alimlərimiz tədricən geri qayıtmağa başlamışdılar. Akademiyanın fəaliyyətində yeni istiqamətlər müəyyənləşdirilmişdir.

***Ulu öndər təkcə milli elmin inkişafı üçün lazımi maddi texniki təminat, alimlərin sosial problemlərinin həlli qayğısına qalmır, eyni zamanda, cəmiyyət üçün xüsusi aktuallığa malik elmi problemləri də özünəməxsus fəhmlə müəyyən edərək alimlərin diqqətinə çatdırır, onları daha ciddi araşdırmalar aparmağa ruhlandırırdı.*** Hər dəfə keçirdiyi görüşlər zamanı Heydər Əliyev Azərbaycan elmi qarşısında duran əsaslı problemlərə toxunmuş, onların aktuallığını nəzərə alaraq alimlərimizə Azərbaycan dövləti, xalqı üçün daha gərəkli strateji məsələlərlə məşğul olmağı tövsiyə etmiş, ölkədə elmin inkişaf strategiyasının əsas müddəalarını irəli sürmüşdür. Geniş kütlə, xalq, millət üçün humanitar elmlərin xüsusi əhəmiyyətə malik olduğunu vurğulayan ulu öndər ədəbiyyat, mədəniyyət tarixinin yazılması zəruriliyi barədə söhbət açmış, çoxəsrlik Azərbaycan tarixinin dərindən öyrənilməsinin və yüksək elmi prinsiplər əsasında şərhinin dövlət üçün mühüm əhəmiyyətini xüsusi qeyd etmişdir.

***Ümummilli lider Heydər Əliyev müstəqillik illərində elmin, ali təhsilin əsas mərkəzlərindən olan Bakı Dövlət Universitetini qətiyyən unutmamış, ilk gündən bu ali təhsil müəssisəsinin üzləşdiyi problemlərin həllini diqqətdə saxlamışdır.*** 1994-cü ildə BDU-nun 75 illik yubileyi təntənəli şəkildə qeyd olunmuşdur. Ümummilli liderin yubiley mərasiminə gəlişi bu böyük təhsil müəssisəsinə sanki yeni həyat vermiş, çətinliklərə rəğmən onu yeni dövrün tələbləri səviyyəsində kadr hazırlığına sövq etmiş, dəfələrlə demişdir ki, universitetin başlıca məqsədi gələcəyin vətəndaşını, yüksək səviyyəli mütəxəssisini yetişdirməkdən ibarətdir. "Fəxr edirəm ki, Bakı Dövlət Universitetinin məzunuyam" - deyən ulu öndər Heydər Əliyev BDU-ya olan rəğbətini daim büruzə verməklə yanaşı, bu ali təhsil ocağının qarşısında da bir sıra məsul vəzifələr müəyyənləşdirmişdir. BDU daim dünya şöhrətli məzununun xüsusi qayğısını hiss etmiş, onun qarşıya qoyduğu ali ideyalar universitetin tələbə və professor-müəllim heyətinin əsas fəaliyyət stimulvericisinə çevrilmişdir. Bakı Dövlət Universitetinin ən zəngin, məzmunlu tarixinin şərəfli səhifələri məhz Heydər Əliyevin böyük diqqət və qayğısı sayəsində yazılmışdır. Görkəmli dövlət xadimi ilə Bakı Dövlət Universitetini bir-birindən ayrı təsəvvür etmək mümkün deyil. Ən azı, o səbəbdən ki, universitet təhsildə də, elmin inkişafında da, maddi bazasının möhkəmləndirilməsi, yeni ixtisasların açılması sahəsində də ən möhtəşəm nailiyyətlərini məhz Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə qazanmışdır. Ümummilli liderin təşəbbüsü ilə universitetin 80 illik yubileyinin təntənəli şəkildə qeyd olunması da həmin diqqətin əyani təzahürü olmuşdur. BDU-nun 69 alimi mükafatlandırılmışdı - "Şöhrət" ordeni, əməkdar elm xadimi, əməkdar müəllim adı, "Tərəqqi" medalı ilə təltif olunmuşdu.

Ulu strateq yalnız Azərbaycanın davamlı inkişaf strategiyasının möhkəm təməlini qoymaqla kifayətlənməmiş, həm də bu strateci kursu qloballaşma dövrünün diktə etdiyi şərtlər müqabilində davam etdirməyə qadir, yüksək istedadlı, praqmatik və rasional təfəkkürlü, xalqını, dövlətini sevən, yüksək idarəçilik keyfiyyətlərinə malik siyasi davamçı və lider yetişdirmişdir. Azərbaycan Prezidenti cənab İlham Əliyevin fəaliyyəti onun ulu öndərin əsasını qoyduğu proqressiv elm və təhsil ənənələrini uğurla davam etdirdiyini və yeni dövrün tələblərinə uyğun zənginləşdirdiyini göstərir. Ötən müddətdə Azərbaycanda dinamik iqtisadi inkişafın sürətləndirilməsinə, cəmiyyət həyatının bütün sahələrində mütərəqqi islahatların aparılmasına etibarlı təminat yaradan cənab İlham Əliyev elm və təhsil problemlərini də diqqət mərkəzində saxlamış, ulu öndərin bu sahədə müəyyənləşdirdiyi prioritetlərin varisliyini təmin etmişdir. Milli təhsilin inkişafı məsələsi öz məzmununu dəyişərək artıq həm də Azərbaycanın gələcək inkişaf modelinin əsasını formalaşdıran başlıca amil kimi gündəmə gətirilmiş, insan kapitalının formalaşmasına xidmət edən ümumtəhsil hərəkatı başlanmışdır.

***Ölkəmizin hərtərəfli inkişafını elm və təhsildə, güclü insan kapitalının formalaşdırılmasında görən dövlət başçısı İlham Əliyev BDU-nun cəmiyyətdəki yeri və rolunu, ictimai əhəmiyyətini daim yüksək dəyərləndirmiş, onun davamlı yüksəlişi, tərəqqisi naminə bütün zəruri tədbirləri həyata keçirmişdir.*** Universitetin 90 illik yubileyinin respublika miqyasında geniş qeyd olunması, bu prosesin ümumən təhsil sistemində son illərin ən əlamətdar hadisələrindən birinə çevrilməsi də məhz dövlət başçısı İlham Əliyevin xidmətləri ilə bağlıdır. Azərbaycan Prezidentinin 30 oktyabr 2009-cu il tarixli sərəncamları ilə Bakı Dövlət Universitetinin ümumilikdə 107 nəfər professor-müəlliminə müxtəlif fəxri adlar, mükafatlar, fərdi təqaüdlər verilmişdir.

Respublikamızda dünya ölkələrinin heç birinə bənzəməyən inkişaf modelinin formalaşması faktı tam təsdiqini tapmışdır. 70 il inzibati-amirlik sistemində yaşamış, iqtisadiyyatı səmərəsiz, köhnə texnologiya və infrastruktur üzərində qurulmuş bir respublikanın qısa müddətdə qazandığı nailiyyətlərin miqyası Azərbaycanla gənişmiqyaslı əməkdaşlığa maraq göstərən beynəlxalq təşkilatlarda, habelə aparıcı Qərb dövlətlərində də böyük maraq doğurur. Son illərdə ictimai fikir tarixinin ayrı-ayrı tədqiqatçıları, tarixçilər, sosioloqlar və filosoflar Azərbaycanın unikallığı ilə fərqlənən milli inkişaf modelini konkret elmi postulatlar üzərində əsaslandırmağa, respublikamızda modernləşmə və demokratikləşmə xəttinin spesifik cəhətlərini, habelə növbəti inkişaf mərhələləri üçün qarşıda duran strateji vəzifələri müəyyənləşdirməyə çalışırlar.

Ölkəmiz qlobal böhranı inamla geridə qoyaraq sürətli sosial-iqtisadi inkişafını qoruyub saxlayır, böyük infrastruktur layihələri, regional proqramlar həyata keçirir, Avropanın enerji təhlükəsizliyində sözünü deyir. Əminliklə demək olar ki, müstəqil Azərbaycan bu gün beynəlxalq miqyasda cərəyan edən proseslərə də fəal təsir imkanlarına malikdir. Sivil dünyanın hüquqi-siyasi atmosferinin müəyyənləşməsində mühüm rolu olan Birləşmiş Millətlər Təşkilatının (BMT) Təhlükəsizlik Şurasına Azərbaycanın üzv seçilməsi bütövlükdə müasir tariximizin ən əlamətdar, qürur doğuran hadisələrindən biri kimi yadda qalmışdır.

2012-ci ilin dövlət büdcəsi Azərbaycanın davamlı tərəqqi və yüksəliş yolunda olduğunu bir daha təsdiqləyir. Büdcə xərcləri dövlətin orta və uzunmüddətli prioritetlərini özündə birləşdirən iqtisadi xəttin həyata keçirilməsinə, sosial-iqtisadi inkişaf sürətinin qorunub saxlanılmasına, iqtisadiyyatın tənzimlənməsinə və stimullaşdırılmasına, milli maraqların beynəlxalq miqyasda təmin edilməsinə, qeyri-neft sektorunun və sahibkarlığın inkişafına, istehsal və sosial infrastrukturun müasir tələblər səviyyəsində qurulmasına, xalqın rifah halının daha da yaxşılaşdırılmasına maliyyə təminatı yaradacaqdır. Təhsil, səhiyyə və digər sahələrdə çalışanların əməkhaqlarının qaldırılması 2012-ci ilin fəal sosial siyasət ili olacağını əminliklə söyləməyə ciddi əsaslar verir.

Ümumilikdə, indi müstəqil Azərbaycanda milli dövlətçilik dəyərlərinin əsasını sağlam cəmiyyət təşkil edir. Cəmiyyətin sağlamlığı əsasən bir göstəricidə - iqtisadi və mənəvi tərəqqi amilində özünü daha qabarıq büruzə verir. Hazırda biz Azərbaycanda baş verən sürətli iqtisadi tərəqqinin şahidiyik və bu sürət dünyanı heyran qoymuşdur. Azərbaycan Respublikası Prezidentinin 29 noyabr 2011-ci il tarixli "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının hazırlanması barədə sərəncamı bunun bariz təcəssümüdür. Belə bir konsepsiyanın siyasi, iqtisadi və sosial əhəmiyyəti təkcə ölkəmizin müasir dövrünə ünvanlanmamışdır, eyni zamanda yaxın onillikdə dövlətimizin, xalqımızın inkişafında əsaslı müsbət keyfiyyət dəyişikliklərinin əldə olunmasına yönəlmişdir. Hazırlanacaq konsepsiya Azərbaycanı inkişaf etmiş dövlətlər sırasına çıxarmaq iqtidarında olan tarixi sənəddir.

Dövlət başçısının sərəncamında da bu gün ölkəmizin yeni inkişaf mərhələsinə qədəm qoyması xüsusi vurğulanır. Bu mərhələnin əsas hədəfi çoxşaxəli, səmərəli və innovasiya yönümlü iqtisadiyyatın formalaşdırılması, sosial sahədə qabaqcıl inkişaf məzmununun təmin olunması və əhalinin maddi-mənəvi rifahının yüksəldilməsi, beynəlxalq standartlar səviyyəsinə çatdırılması, habelə elmin, təhsilin, mədəniyyətin inkişafına, ictimai həyatın bütün istiqamətlərində yeni nailiyyətlərin əldə olunmasından ibarətdir. Başqa sözlə, insan kapitalının hər vasitə ilə canlandırılmasıdır. Bu baxımdan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qarşıya qoyduğu "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının əsas məqsədinə hədlı olaraq uzunmüddətli perspektivdə vətəndaşların maddi və mənəvi rifah halının davamlı şəkildə yüksəldilməsi, ölkənin milli təhlükəsizliyinin gücləndirilməsi, sosial-iqtisadi inkişafın dinamikliyinə nail olunması və Azərbaycanın müstəqil dövlət kimi dünya arenasındakı mövqeyinin möhkəmləndirilməsi aid edilmişdir.

***Bütün bunlar göstərir ki, Heydər Əliyev ideyalarını hər sahədə uca tutan, onları praktik şəkildə gerçəkləşdirən Azərbaycan Prezidenti İlham Əliyevin yeritdiyi siyasətin qayəsində xalqın milli-mənəvi, mədəni və elmi-intellektual potensialının gücləndirilməsi ön planda dayanır.*** Bəli, Heydər Əliyev möhtəşəm quruculuq siyasəti ilə Azərbaycanın ən yeni tarixini yazmış fenomen şəxsiyyətdir! Bu siyasəti inamla davam etdirən dövlət başçısı İlham Əliyev isə ulu öndərin yaratdığı şanlı tarixi yaşatmaqla bahəm, həm də artıq yeni dövlətçilik məktəbinin banisinə çevrilmiş, fəaliyyəti ilə yeni bir tarixi epoxanın əsasını qoymuşdur.

***Abel MƏHƏRRƏMOV,***
***Bakı Dövlət Universitetinin rektoru, akademik,***
***Milli Məclisin deputatı, YAP İdarə Heyətinin üzvü***

## ONUN MÜDRİK KƏLAMLARI



*Hər bir alim qiymətlidir. Ancaq nəzəriyyəni təcrübə ilə birləşdirən, fikirlərini tətbiq edə bilən və onlardan əməli nəticə götürə bilən, cəmiyyətə, ölkəyə, xalqa konkret fayda gətirən insanlar alimlərin sırasında xüsusi yer tuturlar.*

***

*Başqasının fikrinə hörmət etmək, ondan faydalı bir şey götürmək qabiliyyəti hər bir adama lazımdır.*

***

*Kim ki, biliyindən, bacarığından artıq iddialar edir o, həmişə məğlub olur.*

***

*Müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanılması, daimi, əbədi olması bundan da çətindir.*

***

*Vəzifədən ötrü yaşayan adamlar bədbəxt adamlardır.*

***

*Rəhbərlik etmək, yeni adamları öyrətmək və tərbiyələndirmək üçün gərək mənəvi haqqın olsun.*

***

*Görkəmli şəxsiyyətlər xalqın zəkasını, elmini, mədəniyyətini, mənəviyyatını dünyaya nümayiş etdirirlər.*

***

*Ziyalılıq kütləvi ola bilməz. Alim, şair, bəstəkar, rəssam, yazıçı, artist - bunlar fitri istedada malik olan nadir adamlardır.*

***

*Quranı-Kərimin gün Azərbaycanda Allahın yolu ilə getməyimiz üçün məşəldir.*

***

*Xalq həmişə öz ziyalıları, öz mədəniyyəti, öz elmi ilə tanınır.*

***

*Öz ana dilini bilməyən adamlar şikəst adamlardır!*

***

*Həqiqəti gizlətmək, həqiqətin üstünü basdırmaq olmaz.*

***

*İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir.*

***

*Tarix həmişə hər şeyi öz yerinə qoyur.*

***

*Ədalətsizliklə ədaləti bərpa etmək olmaz.*

***

*Ağıl olan yerdə zora ehtiyac yoxdur.*

***

*Tənqid həmişə işə kömək edir.*

Özünü fəth etməyi bacar! Bakı Universiteti

# Kollektivimizin sevimlisi

***Taleyini universitetimizlə bağlayan, təhsil ocağımızın uğurlarında zərrə qədər də olsa, əməyi olan, vəzifəsinin böyüklüyündən-kiçikliyindən asılı olmayaraq, vicdanla çalışan hər bir kəs haqqında yazmağı özümüzə borc bilirik. Bu sayımızda 40 ildən artıqdır ki, hər səhər bu məbədin darvazasından keçib öz iş otağına tələsən incə ruhlu, zərif görünüşlü, ipək xasiyyətli bir xanımdan - Alidə xanımdan söhbət açacağıq.***



Alidə Mikayıl qızı Əliyeva 1952-ci ildə Bakıda anadan olub. 1969-cu ildə Bakı Dövlət Universitetinin əyani şöbəsinə qəbul olunub. Ancaq ailə vəziyyəti ilə əlaqədar təhsilini qiyabi yolla davam etdirməli olub. Elə birinci kurs tələbəsi ikən universitetin kadrlar şöbəsində əmək fəaliyyətinə başlayıb. Kadrlar şöbəsində əvvəlcə katibə, sonralar inspektor işləyib, hazırda isə kadr işləri üzrə mütəxəssis vəzifəsində çalışır.

***Onun 60 illik ömrünün üçdə ikisi burada keçib.*** Bu divarlar arasında Alidə xanımın 43 illik tale nağılı yaşayır. Həyatının kədərini də, fərəhini də bölüşə bildiyi otaq yoldaşları nə qədər doğmadır ona. Bu insanların əhatəsində illərin sanki necə sürətlə ötüb keçdiyinin, zamanın necə tez yetişdiyinin fərqinə varmayıb. İnsanların sevgisi və etibarı onun ən böyük qazancı olub. Bu illər ərzində kadrlar şöbəsində rəhbərlik bir neçə dəfə dəyişilsə də, Alidə xanım işində məsuliyyətli davranışı ilə özünə qarşı həmişə hörmət qazana bilib. Onun nəcib insani keyfiyyətləri, təvazökarlığı hazırkı müdiriyyət tərəfindən də yüksək dəyərləndirilir. Universitetin Kadrlar şöbəsinin müdiri Səadət Namazova şöbənin bütün xanımlarının işindən, o cümlədən Alidə xanımın da işində səriştəli bir əməkdaş kimi fəaliyyətindən razı qaldığını bildirdi.

***Bu yaxınlarda Alidə xanımın 60 yaşı tamam oldu.*** Sevimli kollektivindən ayrılmaq çətin olsa da, artıq təqaüdə çıxıb bir qədər dincəlmək, ömrünün qalan hissəsini ailəsinə, nəvələrinə həsr etmək istəyir. Biz də ona xoş istirahətlər, uzun ömür və cansağlığı arzulayırıq. Qoy mehriban çöhrəsindən təbəssüm heç zaman əskik olmasın.

***✍ Solmaz Babaşova***

***Mən bu şəhəri heç görmədim, amma haqqında çox eşitdim. Hamı onun gözəlliyindən danışdı. Dedilər ki, bu şəhər Azərbaycanın cövhəridir, onun suyundan kim içsə, havasını kim udsa, fitri istedad olur. Mən də düşünürdüm: nə gözəl, bizim sehrli şəhərimiz var.***




# Şuşasız Qarabağ yoxdur

Amma öyrənəndə ki artıq o şəhər bizdə deyil, çox məyus oldum. Şuşa idi bu sehrli şəhər.

Ermənilər tez tərpəndi və torpaqlarımızın 20%-ni aldı. 8 may 1992-ci ildə Şuşa da işğal olunan şəhərlərin sırasına daxil edildi. Doğrudanmı biz bu qədər zəif idik? Doğrudanmı biz bu qədər aciz idik? Tarixi bəlli olmayan bir xalqamı yenildik? Yox, əslində bu, yenilmək deyildi, bu, satqınlığın, xəyanətin və yaltaqlığın ən bariz nümunəsi idi. Sapı özümüzdən olan baltaların və erməni yaltaqlarının Rusiyaya olan böyük inamının nəticəsi bizə torpaqlarımızın 20%-nin itirilməsi bahasına başa gəldi.

XVII əsrdə salınan bu şəhəri asanlıqla acgözlərə verdik. Axı Şuşa Pənahəli xanın fəxrlə öz qonaqlarına təqdim etdiyi "şüşə kimi parlaq" bir yer idi. O yer ki, Cıdır düzündəki atların ayaq səsi hələ də o torpaqlardadır. O yer ki, Xanın, Bülbülün avazı hələ də qulağımızda səslənir. Orada Natəvan yetişib. Bilirsiniz, mən ən çox "Xan qızı"nı sevdim. Mən onda türk qadınının əxlaqını, türk ərinin qeyrətini gördüm. Mən ondakı mərdliyi sevdim. ***İndi rəvamıdır ki, erməni "Xan qızı"nın məzarını dağıtsın?*** Onlar Şuşanı var edənlərdir. Şuşa da Qarabağı var edirdi. İndi Şuşa yoxdur. Şuşa yoxdursa, Qarabağ da yoxdur.

*Hər gün boş xəyallarla oyanmaqdan bezdik.* Guya, ATƏT-in Minsk qrupu nə isə edir? Onlar yeməyə yaxşı yer tapıb, gözəl dil pəhləvanlığı edirlər. Axı onlar bizim nə çəkdiyimizi haradan bilsin? Onlar bizi necə anlasın? Bizə kimsə lazımdır ki bu torpaqları almağa? Onlar bizim haqqımızdır. O torpaqlar bizimdir. Heç kimin mövqeyini gözləmədən, özümüzü sülhməramlı göstərməzdən əvvəl qarşımızdakının sülhdən nə qədər anladığına baxmalıyıq. Biz haqqımız olanı istəməliyik. Şuşa da, Qarabağ da bizimdir. Bunu dildə yox, əməldə etməliyik. Bir ölkə də öz torpaqlarından imtina edə bilməz. Şuşa yoxdursa, Qarabağ yoxdursa, bütöv Azərbaycan da yoxdur.

*Məni hər zaman bir şey çox üzür: Azərbaycanın alınmaz qalası olan bu şəhəri niyə verdik?* Niyə... niyə?! Bu dərd bizimdir. Bu dərdi bizlər 20 ildir ki, çəkirik. Artıq bəsdir! Bütöv Azərbaycan üçün bir əməldə birləşək!

***✍ Rüfanə Günəş, jurnalistika, II kurs.***

# Əməkdaşımızın uğuru

***Müsahibimiz Bakı Dövlət Universitetinin əməkdaşı, II dan qara kəmər ustası, ikiqat Avropa və Dünya mükafatçısı, 4 qat Respublika çempionu, bu günlərdə Avropa çempionu adını qazanan Təbriz Bəyalıyevdir***




***- Mümkünsə əvvəlcə özün haqda qısaca da olsa danışardın...***

- 1990-cı ildə Bakı şəhərində doğulmuşam. Ailədə yalnız mən idman sahəsinə meyl göstərmişəm. 1997-2008-ci illərdə 134 saylı orta məktəbdə təhsil almışam. Hazırda universitetlə əməkdaşlıqla yanaşı, Bədən Tərbiyə və İdman Akademiyasının təkmübarizəli fakültəsində təhsilimi davam etdirirəm. Həmçinin Kontakt-karate Federasiyanın məşqçisi və ŞUTO karate idman klubunun sədri kimi fəaliyyət göstərirəm.

***- Necə oldu ki, idmanla məşğul olmağa başladın?***

- Hələ uşaq yaşlarımdan idmana maraq göstərmişəm. Ən çox xarici filimlərə baxandan sonra məndə həvəs yaranıb. Doğrusu özümümüdafiə, sağlamlığım üçün məşğul olurdum. Belə demək mümkünsə, əvvəllər idmana həvəskar kimi maraq göstərsəm də, sonralar peşəkar şəkildə məşğul olmağa, özümü bu sahədə daha çevik hiss etməyə başladım. 6 yaşımdan peşəkar şəkildə məşq elədim. Xeyli uğurlara imza atdım. 13 yaşımdan etibarən Ağayev Arizin rəhbərliyi altında "Ariz" klubunda məşqlərə başladım, 16 yaşımdan isə Kontakt-karate Federasiyası yığma komandasına cəlb olundum.

***-Uğurların barədə qısaca da olsa danışardın...***

-Dəfələrlə olimpiyadalarda, idman yarışlarında iştirak edərək mükafatlara layiq görülmüşəm. İlk uğurum 2005-ci ildə Ukraynanın Xarkov şəhərində keçirilən Beynəlxalq turnirdə olub. 2008-ci ildə isə Ukraynada keçirilən yarışlarda Avropa birincisi, eyni zamanda dörd dəfə beynəlxalq turnirlərin qalibi olmuşam. Azərbaycanda keçirilən yarışlarda isə prezident kubokunu qazanmışam. 2009, 2010, 2011-ci illərdə Respublika çempionluğunu əldə etmişəm. Hollandiyanın Eqle şəhərində WCKA üzrə Avropa mükafatçısı, Macarıstanda SKDUN üzrə dünya mükafatçısı olmuşam.

***- Ötən ay Avropa çempionatında birinciliyi qazanmısan. Yarış ərəfəsində hansı hissləri keçirirdin. Düşünürdünmü ki, birinci olacaqsan?***

- Dəfələrlə dünya çempionatlarında iştirak edib qalib olmuşam. Ona görə də demək olar ki, bütün yarışlarda özümdə daha çox məsuliyyət hiss edirəm. Qeyd edim ki, bütün qələbələrimi gərgin əziyyətim hesabına qazanmışam. Yarışlarda iştirak etməzdən əvvəl xeyli hazırlıq keçirəm. Məşqlərdə ardıcıl iştirak edirəm. Bu dəfə isə daha da həyəcanlı idim, yarışlarda birincilik həmişə məqsədimdir. Bu dəfə də məqsədimə çatdım. Ruminiyanın Buxarest şəhərində SKDUN təşkilatının keçirdiyi Avropa çempionatında 65 kq çəki dərəcəsində I yerə layiq görülərək Avropa çempionu oldum. Həmin an sevincimin həddi hüdudu yox idi. Mənə olan ümidləri, etimadları doğrultduğumçün çox sevinirəm.

***- Sonda nə demək istərdin?***

- Ölkəmin bayrağını hər dəfə zirvələrə ucaldanda ürəyim fərəh hissi ilə dolur. Beynəlxalq yarışlarda qalib gəldiyim vaxt Azərbaycanın dövlət himni səslənəndə, bayrağımız ucalanda, ifadə edəbilməyəcəyim hisslər yaşayıram. Mənə olan ümidləri doğrultduğum üçün, dövlətimin, xalqımın, ailəmin üzünü ağ elədiyim üçün çox sevincliyəm. Valideynlərimə, məni sevən, dəstək olan hər kəsə minnətdarlığımı bildirirəm.

***✍ Kəramət Böyükçöl***

***Yol hər bir ölkənin mədəniyyət amilidir. Dünyada bütün dövlətlər birinci növbədə, öz yolları ilə mədəniyyət sərgiləyir. Azərbaycanda, paytaxt Bakıda da yol kodeksi ictimai tərəqqiyə xidmət edir.***

***«Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı»na əsasən Bakının yol infrastrukturu yenidən qurulur.***



# Bakının yol infrastrukturu yenidən qurulur

Ötən illərdə demək olar ki, əksər yollarda müasir standartlara uyğun üzləmə işləri görülüb, təmirinə ehtiyac duyulan yollar yenidən qurulub, hətta küçə və səkilər gözəl görkəm alıb.

Enli və yaraşıqlı yollar, keyfiyyətli asfalt örtükləri həm əhalinin, həm də ictimai resursların işinə yarayır. Üstəlik, xeyli vaxt əvvəl təmirinə başlanan yolların Bakıda keçiriləcək «Avrovizya» mahnı müsabiqəsinə qədər hazır olması ilə əlaqədar yenidənqurma işləri sürətini artırıb. Dövlət rəhbərinin tapşırıqlarına əsasən Bakı Şəhər İcra Hakimiyyəti paytaxtda yol infrastrukturunun dünya standartlarına cavab verməsi üçün əlindən gələni edir, cidd-cəhdlə çalışır.

Şəhərdə, demək olar ki, hər həftə bir yolun açılışı olur. Elə Bakıətrafı ərazilərdə gorulən işlər də bu prosesin bir növ davamıdır. Bu günlərdə ölkə prezidenti Sabunçu dairəsindən Bilgəh qəsəbəsinə qədər çəkilən yeni yolda aparılan tikinti işlərinin gedişi ilə də maraqlanıb. Prezidentə məlumat verilib ki, bu yol hər iki istiqamətdə dörd zolaqdan ibarətdir.

Sabunçu dairəsindən Heydər Əliyev adına Beynəlxalq Hava Limanına gedən yol artıq istifadədədir. Uzunluğu 6 kilometr 850 metr olacaq Mərdəkan dairəsi - Heydər Əliyev adına Beynəlxalq Hava Limanı yolunda isə tikinti işləri davam edir. Bundan sonra Mərdəkan - Bilgəh yolunun tikintisinə başlanacaq.

***Əlavə olaraq, Heydər Əliyev adına Beynəlxalq Hava Limanı - Bilgəh yolunun üzərində üç yol ötürücüsü, dörd piyada keçidi inşa ediləcək.*** Mərdəkan dairəsindən Zuğulbaya gedən yolun uzunluğu 7 kilometr 650 metr, Zuğulba - Bilgəh yolunun uzunluğu isə 4 kilometr 250 metr olacaq. Təsəvvür edək ki, bu qədər iş hansı zəhmət hesabına başa gəlir. Adi bir misal. Bu gün ictimai nəqliyyatla hava limanına üz tutanda yollardakı rahatlığın, yolətrafı irimiqyaslı işlərin, yolüstü keçidlərin, digər konstruksiyaların müasir təsiri işgüzar yol zəhmətkeşlərinə rəğbətimizi artırır.

Son günlər Bakı - Ələt avtomobil yolunda aparılan tikinti işləri də genişmiqyaslı işlərdən xəbər verir. Prezident İlham Əliyev adıçəkilən yolun Dövlət Bayrağı meydanına qədər olan hissəsinin tikintisi, yeni bulvarın salınması ilə bağlı görülən işlər, Dövlət Bayrağı meydanı və onun ətrafında həyata keçirilən tədbirlərlə tanış olarkən aidiyyatı qurumlara bütün mümkün imkanlardan istifadə etməyi, nəticə etibarilə ictimai zövqü oxşayacaq işlər görməyi tapşırıb. Hazırda müasir standartlara cavab verən 8 zolaqlı yolda yüksək səviyyəli işlər davam etdirilir.

Səmimi deyək ki, quruculuq işləri təkcə avtomobil yollarında deyil, həmçinin dəmir yollarında da geniş şəkildə öz əksini tapır. Bakıxanov qəsəbəsi, Zabrat, Buzovna, Mərdəkan və Qala istiqamətində dəmir yollarında aparılacaq yenidənqurma işlərini bu prosesin məntiqi nəticəsi hesab etmək olar. Xatırladaq ki, yaxın gələcəkdə bu dəmir yolu xəttinin sökülməsi, onun yerində yeni magistral yolun çəkilməsi planlaşdırılır.

Avtomobil yollarının təmiri, tunel, yeraltı və yerüstü piyada keçidləri, yol qovşaqlarının tikintisi ümumi planda şəhərin rahat həyat tərzinə xidmət üçün hesablanıb.

*Nəzər salsaq, görərik ki, Bakının giriş istiqamətindən çıxış istiqamətinədək olan iri-xırdalı bütün yollar təmir və bərpa işlərinə cəlb edilib.* Əlavə salınan yollardakı rahatlıq, respublika əhəmiyyətli yolların müasir görkəmi, məhəllədaxili küçə və yollardakı rahat gedişgəliş yol infrastrukturunun rekonstruksiyasını özündə təcəssüm etdirir.

***✍ Ədilə Ağayeva, jurnalistika fakültəsi, V kurs***

# Qadın elə bir mələkdir ki...

***Dostoyevski yazır: "Qadın elə bir mələkdir ki, bizi uşaq ikən qoruyur, gənc ikən xoşbəxtliyimiz üçün çalışır, qocalanda isə bizə təsəlli verir".***

Bu yalnız yazıçının qadına verdiyi dəyər deyil, həmçinin bir kişinin qadına verdiyi dəyərdir. Dostoyevski qadını mələyə bənzətməklə mübaliğəyə yol verməyib, çünki qadın yaradılışların ən gözəlidir. O, anadır - tərbiyəçi, gələcəyin təminatçısıdır. Cəmiyyətdə, ailədə ehtiyac hiss olunan bir yaradılışdır. Səxavətli, fədakar, mübariz bir varlıqdır.

Belə bir bənzətməni, demək olar ki, hamımız eşitmişik: "Kişi başdırsa, qadın boyundur". Bu qədər "kobud" bənzətmə olsa da, qadın böyüklüyünü, qadına duyulan ehtiyac hissini ifadə edir.



*Məşhur hind filosofu Osho qadınla kişini müqayisə edərək yazır:* "Kişilərlə yarışırsansa, yarışmana gərək yoxdur, onsuz da sən üstünsən, sevginlə canlı musiqisən".

*Belə bir gözəl fikir də eşitmişəm:* "Qadınlar heç vaxt kişilər kimi müvəffəqiyyətli olmayacaqlar, çünkü onlara məsləhət verən arvadları yoxdur".

Qadınlar haqqında nə qədər danışılsa, yazılsa da, qadın yenə də aydınlaşmayan, həll edilməyən bir mövzudur. Tolstoy bu barədə deyir: "Qadın elə bir mövzudur ki, onu nə qədər müzakirə etsən, həmişə yenidir".

***Mən isə qadını belə ifadə edərdim: "Qadın x-i tapılmayan tənlikdir".***

"30 ilimi qadın psixologiyasını öyrənməyə həsr elədim. Ancaq böyük bir sualın cavabını tapa bilmədim. Qadınlar nə istəyir?" - deyən Z.Freydə görkəmli ingilis yazıçısı Oskar Uayld cavab verir: "Qadın anlamaq üçün deyil, sevilmək üçün yaradılıb".

Sevginizi qadınlardan əsirgəməyin. Çünki "qadın həyatın, bəşəriyyətin gələcəyidir" (Lui Araqon).

***✍ Könül Xanlarova,***
***filologiya fakültəsi,***
***III kurs tələbəsi***

# Gözəllik dünyanı xilas edəcək?



***Gözəllik dünyanı xilas edəcək. Bu fikir ilk dəfə dahi alim, tanınmış psixoloq Şarl Bolder tərəfindən söylənilib. Görəsən, Şarl Bolder bu ifadəni hansı mənada işlədib? Hər halda xarici görünüşü nəzərdə tutmayıb. Əgər belə olsaydı, dünyamız çoxdan xilas olmuşdu.***

Bu baxımdan düşünürəm ki, Şarl Bolder gözəllik dünyanı xilas edəcək deyərkən daxili gözəlliyi: insanların qarşılıqlı anlaşmasını, səmimiyyəti, mehribanlığı, sülhü, əmin-amanlığı nəzərdə tutub. Lakin bəşəriyyətin bugünkü durumuna nəzər saldıqda görürük ki, Bolderin nəzəriyyəsi özünü doğrultmur. Müasir dövrdə insanlar arasında səmimiyyətdən söhbət gedə bilərmi? Bu suala birmənalı cavab vermək çətindir. Təbii ki, insanlar arasında səmimiyyətə də rast gəlinir. Lakin bu, nadir hallarda müşahidə olunur. Alman mütəfəkkiri Karl Marksın gözəl bir fikri var: "İnsanlar bir-birilə 2 səbəbdən yaxın dost olur: ya səmimiyyətdən, ya da ki qorxudan". Bu gün Marksın fikrinin özünü doğrultduğunun şahidi oluruq. Hətta bir körpənin öz atasına: "Ata, mən səni çox istəyirəm" - dediyini eşidəndə belə uşağın nə dərəcədə doğru danışdığını bilmirik. Əgər uşaq atasını, həqiqətən də sevirsə, bu, səmimiyyətdir. Ancaq, uşaq atasını sevməyə bilərmi? Hələ dünyanın get-gəlindən xəbəri olmayan bir uşaq öz sevgisini bu cür ifadə edirsə, bu mütləq həqiqətdir. Çünki, uşağa heç kəs atanı sev, ananı sev - deyə məcbur eləyə bilməz. Məcbur eləsələr belə uşaq bunu anlamaz. Uşaqlar sevməyə məhkumdurlar. Mən bunu ailə çərçivəsində ifadə etməyə çalışsam da, bu təkcə ailədə deyil, eyni zamanda dövlətlər arasında da müşahidə olunur. Dövlətlər arasında səmimiyyəti yalnız dövlət rəsmilərinin görüşlərində görürük. Dövlətlərin dostluğu da insanlardan başlayır. Əgər, insanlar dost olarlarsa, dövlətlər də dost olacaq. Dünyada sona qədər öz dostluğuna sadiq qalan dövlətlər də vardır, dostluğa xilaf çıxan dövlətlər də. Öz dostluğuna daim sadiq qalan, dar gündə biri-birinin köməyinə çatan dövlətlərə Azərbaycanla Türkiyənin münasibətləri parlaq nümunədir. Sonuncu Evrovizon yarışmasında qalib gələn Azərbaycan səhnəyə Türkiyənin bayrağı ilə cıxdı. Bu nə qədər dövlətlərin üreyində yıxılmış dostluq sevgisini yenidən ayağa qaldırdı. Ancaq, tarixə nəzər salsaq görərik ki, birinci və ikinci cahan müharibələrində İtaliya dövləti öz müttəfiqlərindən ayrılaraq əks tərəfə keçmişdir. Məncə, bu ikinciyə gözəl nümunə ola bilər.

Hazırda gündəlik informasiya mənbələrindən aldığımız məlumatlarda ərəb ölkələrinin vəziyyətinə acıyırıq. Ərəb dövlətlərinin durumu, doğrudan da, acınacaqlıdır. Səbəb çox sadədir: nəhəng dövlətlərin iqtisadi və siyasi maraqları, yeni dünya siyasəti və yeni müharibə təhlükəsi... Sizcə, bu halda dünyamız xilas ola bilərmi? Məncə, xeyr. Ola bilməz! Nə qədər ki böyük dövlətlər və onların özlərindən də böyük maraqları var, dünyamız xilas olmayacaq. Hətta bəlkə də gözəlliyin də gücü çatmayacaq dünyamızı xilas etməyə.

Bu günlərdə Liviyanın mərkəzi şəhərlərindən birinə dünyanın ən xaraba şəhəri statusu verilib. Binalar dağılıb, yollar viranə qalıb və minlərlə insan ölüb.

*Dünyanın xilas olmayacağına dair faktlar çoxdur.* Bunların hamısını sadalamaq isə təəssüf ki, heç nəyə kömək eləyə bilməz. Amma problemlər varsa, onlardan çıxış yolları da olmalıdır. Əgər biz bugünkü və gələcək nəsilləri torpaq iddiası, pul iddiası ilə deyil, mədəniyyət, savadlanmaq iddiası ilə tərbiyə etsək, bəlkə də, dünyanı xilas edə bilərik. Çünki, dünyanı ədəbiyyatlar, mədəniyyətlər, elmi-fəlsəfi düşüncələr xilas edəcək, silahlar yox!

***✍ Rübail Bəhrəmov,***
***jurnalistika fakültəsi, I kurs tələbəsi***

**Din və elm**

# Cəmiyyətlə dinin əlaqəsi

***Din ilə elm qarşılıqlı əlaqədə olduğu kimi, onlar arasında ziddiyyətlər də mövcuddur. Bu ziddiyyətlərdən bəzilərini nəzərdən keçirək.***

Quran növlərin olduğu kimi yaradıldığını, elm isə primitiv hüceyrədən başlayaraq təkamül yolu keçdiyini və digər növlərdən meydana gəldiyini deyir. Qurana görə, ilk insan olan Adəm bugünkü insandan fərqlənməyib: danışa bilib, ağlı, şüuru olub. Elm isə insanların zəka, nitq, şüur və s. qabiliyyətlərinin zaman içində inkişaf edib formalaşdığını, qədim insanlarda beyinin həcminin daha az olduğunu, zaman keçdikcə təkmilləşdiyini deyir. Qurana görə, ilk insanlar çox uzun ömür sürüblər: Adəm 930 il, Nuh 950 il və s. Elmə görə isə ən qədim insanların ömrü tam əksinə, bugünkündən də qısa olub. Qurana görə, ilk insanın yaşadığı dövrdə əkinçilik və heyvandarlıq, bugünkü torpaq quruluşu, bitkilər, ağaclar və s. mövcud imiş. Elmə görə isə ilk insanlar ovçu və yığıcı olublar. Əkinçilik və heyvandarlığın tarixi yalnız on min ildir. Qurana görə, Adəmin uşaqlarından Habil Qabili öldürür və basdırır (yəni insanları basdırmaq mövcud idi). Elmə görə isə ölü basdırma insan şüuruna əlli min il əvvəl çatıb. Milyon illər uzunu ölü basdırılsa idi, hər yer qəbiristanlıq olardı.

Bu ziddiyyətlərdən iki düşüncə tərəfdarları yaranıb: materialistlər və din tərəfdarları. Materialistlər elm qarşısındakı məğlubiyyətlərini gizlətmək üçün həmişə müxtəlif təbliğat üsullarını işə salırlar. Onlar dinin tarix boyu elmə qarşı olduğunu deyirlər. Bir sıra əsassız fikirlər irəli sürən materialistlər və ateistlər kainatın nədən yarandığını izah etməkdə acizdirlər. Darvin nəzəriyyəsinə görə, insan meymundan yaranıb. Müasir elmə görə isə insan və meymunun hüceyrələrinin sayının fərqli olması onu göstərir ki, insan heç vaxt meymundan yarana bilməz. Əgər kainat, həqiqətən, təsadüfən yaranıbsa, həyatdakı bütün nizam, Allahın varlığını göstərən dəlillər nədir? Bu sual bütün ateizm, materializm və son zamanlar meydana çıxmış posmodernizmi çökdürdü.



Digər tərəfdən, islama kölgə salan din jahilləridir. Bu gün bunun nəticəsi olaraq bir çoxları islam deyəndə terrorizm, müharibə, hüquqların yox edilməsi və s. başa düşür. Bir sıra mollalar, antidin siyasəti yürüdən insanlar həqiqətdən uzaq olan rəvayət və miflər söyləməklə, insanların psixikasına təsir edərək terror və münaqişələr törətməklə islam ideyasının səhv qavranılmasına səbəb olurlar. Zənnimcə, din, yəni konkret olaraq, islam elmi inkar etmir, əksinə elmlə vəhdətdədir. Qurandan az-çox məlumatı olan müsəlman bilir ki, bu kitabda elmə, biliyə necə yüksək qiymət verilir. İslam əxlaqı insanları bərabərliyə, yaxşı işlər görməyə səsləyir. Elmin müasir inkişaf dövründə kəşf olunan hadisələr VII əsrdə yazılmış "Qurani-Kərim"də öz təsdiqini tapıb. İnsanlar kainatın necə yaranmasını çox düşünmüşlər və düşünürlər. Fizikaya görə, hər şeyi yaradan bir səbəb var. Bəlkə də, kainatın yaranma mexanizminin dərki insan zəkasından kənardır. Lakin həyatda müşahidə olunan hadisələr, həyatdakı bu cür nizamlılıq Allahın varlığına məndə heç bir şübhə qoymur.

Məqsədim kiminsə psixologiyasına təsir edərək din qorxusu yaratmaq deyil. Qorxu ilə yox, məhz inanaraq islamı sevin. Əsl islamı sevin. Hər şeyi unudub həyata, ətrafa baxın. İstəsəniz, hər addımda Allahı görəcəksiniz. Yetər ki, bunu istəyin.

***✍ Ağalı Ağayev,***
***fizika fakültəsi, III kurs tələbəsi***

## Gözlərin dənizdir

Gözlərin dənizdir, dişlərin sədəf,
Qaşların şəvətək qaradı, gözəl.
Dünyada ən dərin yeri soruşsan,
Qəlbimə vurduğun yaradı, gözəl.

Şeyx Sənan, Xumara eylədi, meyil,
Süründü ardıyla o, veyil-veyil,
Sənanın vətəni Gürcüstan deyil,
Yazı hardadırsa, oradı, gözəl.

Salahlı, dərdindən olubdur dəli,
Hicrin qanın sorur, sanki bir zəli.
Niyə yox deyirsən, sən imam Əli,
Hə de ki, dərdimə çaradı, gözəl.

***✍ Ata Salahlı,***
***filologiya fakültəsi, III kurs tələbəsi***

## Mən çıxıb gedəcəm...



Mən çıxıb gedəcəm
bir gün həyatdan,
Geridə sadəcə izlər
qalacaq.
Bəlkə də sən mənə o
gün uzaqdan
Baxaraq yad kimi
gözün donacaq.

Ağlayıb,sızlayıb hamı susacaq,
Kim ölür ölənlə,əziz sevgilim?
Geridə sadəcə məzar qalacaq,
Kim olub məzarla məzar,sevgilim?

Darıxıb mənim üçün göynəyər qəlbin
Qədrimi bildinmi nəhayət sonda?
Sağ ikən bir çiçək mənə verməzdin,
Qəbrimə çiçəklə gələrsən onda.

Əyilib qəbrimə o gülləri qoyanda
Əllərin titrəyər soyuqdur məzar.
Sevgilim,orada,elə o anda
Dilin o daşdakı şeiri oxuyar:

"Gedirəm bu dünyadan əlləri bağlı,
Məni ayırmayın siz sevdiyimdən.
Həyatım hər zaman ağlı,qaralı,
Bir rəng gəlmədi ki,heç sevdiyimdən.

Bir zaman qəbrimə gəlsən,sevgilim,
Çiçəklər gətirsən,güllər gətirsən.
Əllərin titrəsə bil ki,sevgilim
Məzarda duymuşam o an səni mən"

***✍ Zenfira Baxşalıyeva,***
***filologiya fakültəsi, III kurs tələbəsi***

## ETİBARSIZDIR

Tarix fakültəsinin II kurs tələbəsi Babaşov Tapdıq Əlizaman oğluna məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Cografiya fakültəsinin III kurs tələbəsi Əhmədzadə Əhməd Babəkoğluna məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Ekologiya ve torpaqşünaslıq fakültəsinin II kurs tələbəsi Zeynallı Leyla Fuad qızına məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Ekologiya ve torpaqşünaslıq fakültəsinin II kurs tələbəsi Vəliyev Şakir Vilayət oğluna məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Sosial elmlər və psixologiya fakültəsinin I kurs tələbəsi Şirinova Leyla Zakir qızına məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır

Sosial elmlər və psixologiya fakültəsinin III kurs tələbəsi Əliyeva Maral Məmməd qızına məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Fizika fakültəsinin 4-cü kurs tələbəsi Abdullayeva Şəbnəm Yaşar qızına məxsus qiymət kitabçası itdiyi üçün etibarsız sayılır

Şərqşünaslıq fakültəsinin I kurs tələbəsi Əsgərov Rövşən Tofiq oğluna məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Tarix fakültəsinin III kurs tələbəsi Məmmədli Seymur Arzu oğluna məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Hüquq fakültəsinin I kurs tələbəsi Muradbəyli Sənan Nizami oğluna məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Mexanika-riyaziyyat fakültəsinin III kurs tələbəsi Hüseynova Nigar Mirmehdi qızına məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin IV kurs tələbəsi Vəliyev Məhərrəm İsmayıl oğluna məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin II kurs magistri Məmmədov Roman Abdulla oğluna məxsus magistr vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Hüquq fakültəsinin I kurs tələbəsi Həsənov Mayıl Araz oğluna məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Coğrafiya fakültəsinin III kurs tələbə Miriyeva Fəridə Məhəmməd qızına məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Şərqşünaslıq fakültəsinin III kurs tələbəsi Məlikli Nərmin Füzuli qızına məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Özünü fəth etməyi bacar!
# Bakı Universiteti
№ 06 (1429) 14 may 2012-ci il

SON SƏHİFƏ

## Tələbələrin nəzərinə!

**Xüsusi istedada, jurnalistlik qabiliyyətinə, yaradıcılıq bacarığına maliksinizsə və tanınmaq istəyirsinizsə "Bakı Universiteti" qəzetinə müraciət edin.**

## Nitq mədəniyyəti

# TÜRKLƏR TƏKCƏ TÜRKİYƏDƏ YAŞAMIRLAR



Bilindiyi kimi, dünyadakı dövlətlərdən yeddisinin (Türkiyə, Azərbaycan, Türkmənistan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Şimali Kipr) əsas əhalisi türklərdir. Başqa ölkələrdə də xeyli türk yaşayır. KİV materiallarında, başqa yazılarımızda və danışığımızda çox vaxt buna əhəmiyyət vermirik, "türk", "türklər" dedikdə (yazdıqda) təkcə Türkiyə əhalisini nəzərdə tuturuq. Məsələn, qəzetlərdən birinə dərc olunmuş "15 milyon dollarlıq zarafat" məqaləsində deyilir: "Ayrı-ayrı türk iş adamları ilə söhbətdə onlar başlıca amil kimi millət faktorunu qabardırlar. Yəni bu gün Azərbaycanın ən əhəmiyyətli sahələrinə sərmayə qoyan ingilisə, almana, fransıza və s. daha geniş imkan verildiyi halda, türklər küncə sıxışdırılmış kimi görünür".

Nitqdə yol verilən səhvlərdən biri də ümumi sinfə, topluya məxsus ümumi adın həmin toplunun yalnız bir qisminə aid edilməsi, bir növ, "diskriminasiya" olunmasıdır.

Açıqca görünür ki, buradakı "türk", "türklər" sözlərinin hamısı yalnız türkiyəli iş adamlarına aiddir. İstər-istəməz sual yaranır: "Bəs Azərbaycanın və yuxarıda sadalanmış dövlətlərin əsas əhalisinin milliyyəti nədir?"

Eyni yanlışlıqla şəhərimizin küçələrindəki lövhələrdə də rastlaşırıq: türk dönəri, türk bərbəri və s.

Bu misalların hamısında "türk" sözü əvəzinə "Türkiyə", yaxud "türkiyəli" deyimləri işlənməlidir: Türkiyə iş adamları, türkiyəlilər, Türkiyə dönəri, türkiyəli bərbər və s.

Oxşar vəziyyəti - ümumi ilə xüsusinin qarışdırılması hallarını başqa situasiyalarda da müşahidə etmək mümkündür. Bəllidir ki, formal məntiqin bölgü (təsnifat) qaydası ilə qrammatikadakı həmcinslik kateqoriyası arasında birbaşa bağlılıq var, yəni cümlənin həmcins üzvləri də məntiqi bölgünün tələblərinə cavab verməli, mütənasüb olmalı, bölgü komponentlərinin cəmi bölünən topluya tən gəlməli, onların birindəki əsas əlamət başqalarında təkrarlanmamalıdır. Təəssüf ki, jurnalistlərimizin yazılarında çox vaxt bu qaydaya əməl olunmur.

"Dəyirmi masada alimlərin, ziyalıların, siyasi partiya rəhbərlərinin iştirakı ilə müzakirələr oldu"

Bu cümlədən belə çıxır ki, alimlər, ziyalılar və siyasi partiya rəhbərləri ayrı-ayrı kateqoriyalara daxil olan şəxslərdir. Halbuki alimlər də, siyasi partiya rəhbərləri də ziyalı kateqoriyasına daxildirlər və siyasi partiya rəhbərlərinin də alimlik dərəcəsi ola bilər.

Məntiqdə və nitqdə (Ərəb dilindən alınmış "məntiq" və "nitq" qohum sözlərdir) ümumi anlayış (cins), bir də həmin ümumi anlayışa daxil olan xüsusi anlayışlar (növlər) olur. Bunları bir-birinə bölüşdürmə bağlayıcıları (ya, yaxud, gah, istər) ilə bağlamaq olmaz. Misal üçün, mətbuat ümumi anlayış (cins), qəzet bu ümumi anlayışa daxil olan xüsusi anlayışlardan (növlərdən) biridir. Buna görə də "qəzet, yaxud mətbuat" demək (yazmaq) olmaz. Eyni qaydada Şərq ümumi anlayış, Şərqdə yerləşən ayrı-ayrı ölkələr, o cümlədən Türkiyə xüsusi anlayışlardır.

Qəzetdən götürülmüş bir cümləyə baxaq: "Əsrin əvvəllərində Türkiyədə, yaxud Şərqdə olan əcnəbi missionerlər yaxşı bilirdilər ki, bütün bunlar uydurmadır". Sual olunur: "Türkiyə bəyəm Şərq ölkəsi deyilmi ki, bu iki anlayış bir-birinə yaxud sözü ilə bağlanır?"

Praktikada tez-tez rastlaşdığımız bu cür səhvlər bəzilərinə "boş şey", onların düzəldilməsi isə "xırdaçılıq" kimi görünür. Belə "xırda" səhvlərin vaxtında aradan qaldırılmaması həm də ona görə təhlükəlidir ki, analoji qüsurlar illər boyu təkrarlana-təkrarlana oxucuların (dinləyicilərin, tamaşaçıların) və hətta gələcək yazarların şüurunda əbədi yuva salaraq həm məntiqi, həm də linqvistik baxımdan yanlış stereotiplər formalaşdırır. Sonralar onların islah olunması xeyli çətinlişir, bəzən isə mümkün olmur.

***Nəsir Əhmədli,***
***Əməkdar jurnalist, filologiya elmləri doktoru, professor***

# Elan

## BDU-nun hüquq klinikası aztəminatlı vətəndaşlara pulsuz hüquqi yardım göstərir

Bakı Dövlət Universitetinin hüquq fakültəsində fəaliyyət göstərən Hüquq klinikasında fakültənin 3-4-cü kurs tələbələri vəkillərin və müəllimlərin nəzarəti altında əhalinin aztəminatlı vətəndaşlarına - təqaüdçülərə, əlillərə, qaçqın və məcburi köçkünlərə, təhsil alan gənclərə məsləhət formasında pulsuz hüquqi yardım göstərirlər. Vəkillərin və müəllimlərin nəzarəti altında BDU-nun tələbələri hüquqi xarakterli sənədləri lazımi qaydada tərtib etməyi, dövlət orqanlarında və başqa təşkilatlarda vətəndaşların maraqlarının müdafiəsi üçün atılacaq addımları izah edəcəklər. Klinikaya müraciət etmək istəyən vətəndaşlar zəng edərək işin mahiyyəti barədə qısa məlumat verməli, məsləhət üçün Klinikaya gələcəkləri gün və vaxtı razılaşdırmalıdır.

**Vətəndaşlar hər gün (Şənbə və bazar günləri istisna olmaqla) saat 9:00-dan 17:00-dək 510 00 52 nömrəli telefonla Klinikaya zəng edə bilərlər.**

***Ünvan:*** Bakı, Z.Xəlilov küçəsi, 23, Bakı Dövlət Universitetinin 1№li tədris korpusu, birinci mərtəbə, otaq № 7.

# TƏBRİK EDİRİK !





***Jurnalistika fakültəsinin tədris işləri üzrə dekan müavini, Televiziya və radio jurnalistikası kafedrasının baş müəllimi Əli Hacıyevin 50 yaşı tamam olub.*** Bu münasibətlə keçirilən tədbirdə fakültənin ağsaqqalı Şirməmməd Hüseynov başda olmaqla, professor-müəllim heyəti iştirak edib. Çıxış edənlər Əli müəllimi gözəl insan, müəllim, səmimi iş yoldaşı kimi xarakterizə ediblər.

Əli Əflan oğlu Hacıyev 1962-ci il may ayının 10-da Bakı şəhərində anadan olub. 1969-1979-cu illərdə Bakı şəhər 158 №-li orta məktəbdə oxuyub. 1985-1991-ci illərdə BDU-da jurnalistika ixtisası üzrə təhsil alıb, 1985-ci ildən BDU-nun jurnalistika fakültəsində çalışır.

Əmək fəaliyyətinə 1979-cu ildə "İşıq" nəşriyyatında başlayıb. 1983-cü ildə Televiziya və radio jurnalistikası kafedrası "Tədris" teleradio studiyasının müdiri vəzifəsində çalışıb. 1998-ci ildən Televiziya və radio jurnalistikası kafedrasının baş müəllimi, jurnalistika fakültəsinin dekan müavinidir. Əli müəllim fakültənin və universitetin ictimai həyatında fəal iştirak edir, tədrisin keyfiyyətinin yüksəldilməsi, nizam-intizamın möhkəmləndirilməsi üçün əlindən gələni əsirgəmir. O, "KİV-in texnikası və texnologiyası", "RTV jurnalistikasının əsasları", "Jurnalistin praktik yaradıcılığı" fənlərini tədris edir. Ə.Hacıyev çoxsaylı elmi məqalələrin müəllifidir.

Qeyd edək ki, Əli Hacıyev uzunmüddətli səmərəli fəaliyyətinə görə rektor, akademik Abel Məhərrəmov tərəfindən Fəxri Fərmanlı təltif edilib, ona təşəkkür elan edilib.

***Biz də "Bakı Universiteti" kollektivi adından Əli müəllimi təbrik edir, ona can sağlığı, ailə səadəti, yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.***

## BDU kitabxanasından...

# "İngiliscə-Azərbaycanca atalar sözləri və zərb -məsəllər lüğəti"




İngilis dili kafedrasının müdiri, dosent Abbas Abbasovun " Dictionary of English-azerbaijanian proverbs and sayings, İngiliscə-Azərbaycanca atalar sözləri və zərb -məsəllər lüğəti" ingilis dili ilə məşğul olan şagird, tələbə, müəllim və elm adamları üçün nəzərdə tutulub. Kitabda Azərbaycan dilində müqabili olmayan ingilis atalar sözü və zərb-məsəlləri verilib. 472 səhifəlik lüğət ingilis dilçiliyi sahəsində azyazılan kitablardan olduğu üçün oxucular tərəfindən maraqla qarşılanıb.

## Maraqlı ixtira

# Böyük Britaniya alimləri yaraları sağaldan cihaz hazırlayıb



Sağalmayan yaralardakı infeksiya bu cihaz vasitəsilə 50 faiz azaldılır.

Böyük Britaniya alimləri əməliyyatdan sonra sağalmayan, yenidən açılan yaraları sağaldan və infeksiyaların qarşısını alan qeyri-adi PİCO adlı cihaz hazırlayıblar.

Tozsoranı xatırladan cihaz qanın lazımi sahəyə axınını təmin edir. Bu da öz növbəsində sağlam hüceyrələri gücləndirir. PİCO plastik boru, birdəfəlik istifadə üçün sarğı və batareyalı mobil cihazdır. Sarğının kənarlarında yaranı təcrid edən rezin qatı var və bir sarğıdan yalnız 1 həftə müddətində istifadə etmək olar.

Cihaz işə salındıqda yara zonasından havanı çəkir və nəticədə irin və maye yaradan çəkilir, yerinə isə qan işləyir.

Cihazın effektivliyi 263 xəstə üzərində sübut olunub. PİCO vasitəsilə sağalmayan yaralarda infeksiya və yaranın yenidən açılma ehtimalı 50 faiz azalıb.

# 15 may - Beynəlxalq ailə günü



1994-cü ildən etibarən hər il 15 may tarixi BMT tərəfindən "Beynəlxalq Ailə Günü"kimi qeyd edilir. Təbii ki, ailə günü təyin etməkdə məqsəd ailələrə dəstək, ailələrin gücləndirilməsi olmuşdur. Dünya dövlətləri ailə hüququ və ailə məcəlləsi adlı qanunlar qəbul etməklə, həyatda yaşam anlamını verən bu müqəddəs ittifaqı hər cür problem və çətinliklərdən qorumağa çalışır.

***Azadqadin.az***

**Baş redaktor:** Anzulə ƏMİROVA

**Redaksiya heyəti:** Solmaz Babaşova, Aynur Qurbanqızı, Tamilla Müslümova, Salam Muxtarov, Kəramət Böyükçöl

**Redaksiyanın ünvanı:** Bakı, akad. Zahid Xəlilov küç. 23, BDU-nun əsas binası, III mərtəbə
**Tel.:** 539-03-64, 539-04-78
e-mail: anzule@mail.ru

**Sifariş: 162**
**Tiraj: 2000**

VÖEN: 990000213
Lisenziya №-022708
Qəzet "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunur.
Əlyazmalar geri qaytarılmır